## Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına...

Rüstəm Minnixanov üç ədəd mikroavtobus hədiyyə edib



**Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov tərəfindən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına üç ədəd mikroavtobus hədiyyə edilib.**

Mikroavtobuslar Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyevə təqdim olunub.

*Qeyd edək ki, mikroavtobusların təqdim edilməsi Rüstəm Minnixanovun dekabrın 17-də Ələt Azad İqtisadi Zonasına (ƏAİZ) səfəri çərçivəsində baş tutub.*



## Bakıda 33 yaşlı qadın başına daşla vurularaq qətlə yetirilib

**Bu gun saat 20 radələrində Sabunçu rayonu Zabrat qəsəbəsində 1991-ci il təvəllüdlü qadın başına daşla vurularaq qətlə yetirilib.**

APA-nın əldə etdiyi məlumata görə, E.İbrahimovanı qətlə yetirməkdə şübhəli bilinən tanışı 1995-ci il təvəllüdlü İgid Rəcəbzadə polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib.

Faktla bağlı araşdırma aparılır.


№ 232 (6233) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 18 dekabr 2024-cü il (çərşənbə)








# Yaxta kirayəsi dələduzluğu

Polis vətəndaşları aldadan şəxsləri saxlayıb

**Sosial şəbəkələrdə "rent.yaxta", "yaxtaların icarəsi" və digər adlar altında saxta elanlar yerləşdirməklə vətəndaşlara qarşı kütləvi dələduzluq edən şəxslər müəyyən ediliblər.**

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən verilən məlumata görə, paytaxtda polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə 23 yaşlı Nihat Azadov və tanışı 23 yaşlı Şamama Mahmudova saxlanılıblar.

Bildirilir ki, onlar ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pulu hissə-hissə onlayn yolla ilkin ödəniş formasında aldıqdan sonra həmin şəxsləri bloklayıblar. Onların əməlləri ilə bağlı Nəsimi RPİ 22-ci Polis Şöbəsində araşdırmalar davam etdirilir. N.Azadov və Ş.Mahmudovanın qanunsuz əməllərindən zərərçəkən başqa şəxslər varsa bu barədə polisə məlumat verə bilərlər. Vətəndaşlara bir daha tövsiyə edirik ki, sosial şəbəkələrdə kirayə, alqı-satqı, xidmət, yaxud digər adlar altında fəaliyyət göstərən profil, səhifələrin təklifləri üzrə onlayn ödənişlərdən çəkinsinlər.



## Hikmət Hacıyev Ukrayna səfiri ilə görüşüb

"Göstərdiyi dəstəyə görə Azərbaycana minnətdarıq"

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ukraynanın Azərbaycandakı səfiri Yuri Husyevi qəbul edib.**

Bu barədə Yuri Husyev "X" platformasındakı paylaşımında bildirib.

"Hikmət Hacıyev ilə məhsuldar bir görüş oldu. Biz əlaqələrin gücləndirilməsi, iqtisadi əməkdaşlıq və investisiya imkanlarını müzakirə etdik. Göstərdiyi dəstəyə görə Azərbaycana minnətdarıq və biz strateji tərəfdaşlığımızın inkişafı üzərində işləyirik", - səfir paylaşımında qeyd edib.

## Bakıda "Media Savadlılığı" konfransı keçirilib



**Bakıda "Media Savadlılığı" konfransı keçirilib.**

Tədbir "Media Savadlılığı" Həftəsi çərçivəsində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı, aidiyyəti dövlət və özəl qurumların, akademik müəssisələrin, media və vətəndaş cəmiyyəti institutlarının tərəfdaşlığı ilə baş tutub.

Konfransda müxtəlif qurumların rəsmiləri, sahə üzrə yerli və xarici ekspertlər və 500 nəfərə yaxın Azərbaycan könüllüsü və gənc iştirak edib. Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov media savadlılığının artırılmasının kifayət qədər miqyaslı və cəmiyyətin bütün seqmentlərini əhatə edən davamlı proses olduğunu, dövlət qurumlarının, medianın və cəmiyyətin ünsiyyətinin sağlam prinsiplər əsasında qurulmasının və effektiv kommunikasiyasının vacibliyini, medianın məzmun istehsalında peşəkarlığının yüksəldilməsinin bu istiqamətdə mühüm əhəmiyyət daşıdığını bildirib...

(səh.2)

# Türkiyə Suriyanı terror yuvasından xilas edəcək

Tramp da bu ölkədə yaşanacaq hadisələrin açarının Türkiyədə olduğunu deyir



**Beynəlxalq ictimaiyyət Suriya xalqına 13 il ərzində lazımi dəstəyi göstərməyib, göstərə bilməyib. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Avropa İttifaqı (Aİ) Komissiyasının sədri Ursula fon der Lyayenlə görüşündən sonra mətbuata açıqlamasında deyib.**

Ərdoğan həmçinin ölkəsinin Suriya ilə əməkdaşlığa hazır olduğunu ifadə edib və Dəməşqdəki Türkiyə səfirliyinin bərpası məsələsinə də toxunub: "Türkiyə bundan sonra da Suriyanın yanında olmağa davam edəcək. Suriyanı terror yuvası olmaqdan xilas etmək lazımdır".

Qeyd edək ki, Rusiya Suriyadan hərbi texnikalarını çıxartmağa davam edir. Rusiya bu dəfə Lazkiyə şəhərindən qüvvələrini çıxarmağa başlayıb. Daşınan silahlar arasında zirehli texnikalarla yanaşı, S-400 batareyaları da olub. Rus qoşunları daha əvvəl paytaxt Dəməşqdən də çıxarılmışdı. ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp Suriyada yaşanacaq hadisələrin açarının Türkiyədə olduğunu deyib.

(səh.4)

# Sarkisyan və Koçaryan istintaq prosesində dindirilməlidir

Ermənistanda gizlənən cinayətkarların Azərbaycana ekstradisiyası mümkündür



**Azərbaycan Baş Prokurorluğu Bakıda həbsdə olan Qarabağdakı hərbi canilərin cinayət işi ilə bağlı Ermənistanın aidiyyəti orqanlarını əməkdaşlığa dəvət edib.**

Bu barədə Baş Prokurorluğun Bakıda həbsdə olan Qarabağ cinayətkarlarının işinin məhkəməyə göndərilməsi ilə bağlı yaydığı məlumatda qeyd olunub.

Vurğulanıb ki, Baş Prokurorluq istintaq işi ilə əlaqədar qeyd olunan epizodlar üzrə şübhəli bilinən, eləcə də şəhid qismində bir çox şəxslərin Ermənistan ərazisində olmasına ciddi əsasları rəhbər tutaraq, Ermənistanın aidiyyəti orqanlarını əməkdaşlığa dəvət edib.

(səh.3)



## Əhalinin sayı 10 milyon 218 min 536 nəfərə çatıb

**Azərbaycanda əhalinin sayı açıqlanıb. Bu barədə məlumatı Dövlət Statistika Komitəsi məlumat yayıb**

*Qeyd edilib ki, ilin əvvəlindən Azərbaycanda əhalinin sayı 37 min 766 nəfər və ya 0,4 faiz artaraq 2024-cü il noyabr ayının 1-i vəziyyətinə 10 milyon 218 min 536 nəfərə çatıb. Əhalinin ümumi sayının 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.*

## Sumqayıtda müəllim şagirdi stulla döydü



**Sumqayıtda yerləşən təhsil müəssisəsində xoşagəlməz insident baş verib.**

Sumqayit24.az xəbər verir ki, bu halın 38 nömrəli orta məktəbdə qeydə alındığı iddia edilir. Bildirilir ki, 9-cu sinif şagirdi dərsdə güldüyü üçün müəllim onu stulla vurub. Həmçinin zərərçəkənin saçının yonulduğu və paltarının cırıldığı da səsləndirilən iddialar arasındadır.

Məsələ ilə bağlı Abşeron-Xızı Regional Təhsil İdarəsinə sorğu göndərilib.

## Nikahların sayı azalıb

42073 nikah və 17907 boşanma halları qeydə alınıb



**Bu ilin on ayı ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 42073 nikah və 17907 boşanma halları qeydə alınıb.**

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 5,3-dən 4,9-a düşüb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (2,1) qalıb.



## "Kitab sevdiyin qız kimidir, sinənə qoyub yata da bilərsən"

Aqil Abbas: "Amma elektron kitab oxumaq əleyhqaz geyinib qızılgül iyləməyə bənzəyir"

(səh.4)



## Olduğu kimi görünən, göründüyü kimi olan şəxsiyyət

Şirməmməd Hüseynov qaranlıqda görünən işıq idi

(səh.5)

# Bakıda "Media Savadlılığı" konfransı keçirilib




**Bakıda "Media Savadlılığı" konfransı keçirilib.**

**Tədbir "Media Savadlılığı" Həftəsi çərçivəsində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı, aidiyyəti dövlət və özəl qurumların, akademik müəssisələrin, media və vətəndaş cəmiyyəti institutlarının tərəfdaşlığı ilə baş tutub.**



Konfransda müxtəlif qurumların rəsmiləri, sahə üzrə yerli və xarici ekspertlər və 500 nəfərə yaxın Azərbaycan könüllüsü və gənc iştirak edib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov media savadlılığının artırılmasının kifayət qədər miqyaslı və cəmiyyətin bütün seqmentlərini əhatə edən davamlı proses olduğunu, dövlət qurumlarının, medianın və cəmiyyətin ünsiyyətinin sağlam prinsiplər əsasında qurulmasının və effektiv kommunikasiyasının vacibliyini, medianın məzmun istehsalında peşəkarlığının yüksəldilməsinin bu istiqamətdə mühüm əhəmiyyət daşıdığını bildirib: "Bu, bir tərəfdən media təhsilinin təkmilləşdirilməsini, digər tərəfdən media savadlı istehlakçıların yetişdirilməsini ehtiva edir.

Beynəlxalq təcrübədə ölkələr tərəfindən media savadlılığının artırılması istiqamətində ən çox istifadə edilən strategiya mövzunun bir çox səviyyələrdə tədris sisteminə daxil edilməsi və bununla bağlı koordinasiyalı tədbirlərin görülməsidir. Belə ki, müvafiq maarifləndirici internet saytlarının yaradılması, media savadlılığı strategiyalarına uyğun olaraq məsul qurumlar tərəfindən hazırlanan və mütəmadi yenilənən milli nəşrlərin əhali tərəfindən mənimsənilməsi və həm nəzəri, həm də təcrübi olaraq bacarıqların təkmilləşdirilməsi diqqətdə saxlanılan istiqamətlərdəndir.

Mahiyyətinə görə media savadlılığını İKT-nin sürətli inkişafı ilə müşayiət olunan tendensiyalardan kənarda təsəvvür etmək mümkün deyildir, bu baxımdan informasiyaya tənqidi münasibət rəqəmsal savadlılıqla bilavasitə əlaqədar fenomen kimi nəzərdən keçirilməlidir".

Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov çıxışında media savadlılığının ehtiyac duyulan məlumatı tapmaq, qiymətləndirmək və ondan səmərəli istifadə etmək bacarığı olduğunu diqqətə çatdırıb. O bildirib ki, informasiyanı anlamaq, tənqidi düşünmək, jurnalistikanın prinsiplərini mənimsəmək, medianın necə fəaliyyət göstərdiyini başa düşmək, mediada yayılan məlumat və hadisələrin heç də həmişə reallığı əks etdirmədiyinin fərqində olmaq media savadlılığının əsasını təşkil edir: "Dünya üzrə orta gündəlik sosial media istifadəsi 145 dəqiqədir, informasiyadan düzgün istifadə nəinki jurnalistlər üçün eyni zamanda hər kateqoriyadan insan üçün olduqca böyük əhəmiyyət kəsb edir. Bu kontekstdə media savadlılığının hər bir insanın təhsilində özünə yer alması çox mühümdür".

Mərakeş Krallığının Audiovizual Kommunikasiyalar üzrə Ali Qurumunun sədri Lətifə Axarbaş isə müasir dövrdə elektron informasiya cəmiyyətinin sürətlə genişlənməsi və rəqəmsal mühitdə məlumatlara asan çıxışın təmin edilməsi ilə əlaqədar auditoriyanın xəbərin doğru və etibarlı tərəfini müəyyənləşdirməkdə çətinliklərlə üzləşdiyini vurğulayaraq, media savadlılığının artırılmasının əhəmiyyətindən danışıb.

Daha sonra cari ilin iyul ayında keçirilmiş 2-ci Şuşa Qlobal Media Forumunda dezinformasiya və media savadlılığı ilə bağlı səsləndirilən fikirlərin yer aldığı videoçarx təqdim edilib.

Sonda Prezident mükafatçısı və texno-bloqer Tariyel Ağazadə dezinformasiyanın aşkarlanması ilə bağlı "Tools and Techniques" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda müasir dövrün ən böyük problemlərindən biri olan saxta xəbərlərin müəyyən edilməsi üçün istifadə olunan texnologiya və metodlar auditoriyanın diqqətinə çatdırılıb.



# Prezident Tatarıstanın Rəisi ilə görüşüb

## İlham Əliyev Rüstəm Minnixanova Azərbaycanın "Dostluq" ordenini təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşüb.**

Əvvəlcə Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun Azərbaycanın "Dostluq" ordeni ilə təltifedilmə mərasimi oldu. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Rüstəm Minnixanov "Dostluq" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev "Dostluq" ordenini Rüstəm Minnixanova təqdim edib.

**Prezident İlham Əliyev dedi:** Layiq olduğunuz mükafat münasibətilə Sizi təbrik edirəm. Uzun illərdir ki, Siz ənənəvi əlaqələrimizin möhkəmlənməsi üçün çox iş görürsünüz. Ona görə də belə yüksək mükafatı Sizə təqdim etmək və yeni uğurlar arzulamaq mənim üçün çox xoşdur.

**Rüstəm Minnixanov dedi:** Cənab Prezident, çox sağ olun. Bu, yüksək mükafatdır. Biz Rusiya-Azərbaycan münasibətləri çərçivəsində əlaqələrimizi yüksək qiymətləndiririk. Tatarıstanda bunun xüsusi önəmi var. Tarixən belə alınıb ki, qardaş xalqlarımız və ən başlıcası, liderlərimiz - Heydər Əliyev və birinci Prezidentimiz Mintimer Şaripoviç Şaymiyev bizim inkişaf etdirdiyimiz həmin kursun əsasını qoyublar.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov birgə nahar ediblər.

# AQEM-ə sədrlik Azərbaycana keçdi

**Dekabrın 17-də ölkəmizin ev sahibliyi ilə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Xarici İşlər Nazirləri Şurasının virtual formatda 7-ci iclası keçirilib.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, Nazirlər Şurasının iclasında 27 üzv ölkədən nazirlər, dövlət nazirləri, nazir müavinləri, habelə nümayəndə heyətlərinin rəhbərləri iştirak ediblər. Tədbirə həmçinin 3 müşahidəçi dövlət və 8 tərəfdaş beynəlxalq təşkilatın rəhbərləri qatılıb.

Nazirlər Şurasının 7-ci iclasında Müşavirəyə 2024-2026-cı illər üzrə Sədrlik Qazaxıstandan Azərbaycana keçib.

İclasda çıxış edən nazir Ceyhun Bayramov 2024-2026-cı illər üzrə AQEM-də Sədrliyi Azərbaycana həvalə etməklə ölkəmizə göstərilən etimada görə bütün üzv dövlətlərə təşəkkürünü bildirib.

Nazir həmçinin çoxqütblülüyün gücləndiyi və çoxtərəfliliyin yeni çağırışlarla üzləşdiyi bir dövrdə Asiya qitəsinin həmin çağırışlara birlik və əməkdaşlıq şəraitində, eyni zamanda, ortaq məsuliyyət prinsipi əsasında cavab verməli olduğunu, AQEM-in bu əməkdaşlığı daha da inkişaf etdirərək çağırışları dəf etmək üçün unikal bir platforma olduğunu diqqətə çatdırıb.

Azərbaycanın AQEM-ə Sədrliyinin "Daha güclü AQEM - Asiyada əlaqəlilik, rəqəmsallaşma və dayanıqlı inkişaf" mövzusuna həsr olunduğu və AQEM-in transformasiyası və institusional inkişafı, etimad-quruculuğu tədbirlərinin icrası vasitəsilə sahəvi əməkdaşlığın gücləndirilməsi vəAQEM-in digər beynəlxalq və regional təşkilatlarla birgə fəaliyyətinin təşviqi istiqamətlərinin 3 əsas prioritet olaraq irəlilədiləcəyi qeyd edilib.

C.Bayramov, həmçinin Azərbaycan tərəfindən 2025-ci il üçün AQEM-in 5 ölçüsü üzrə 20-dən çox tədbirin təşkilinin planlaşdırıldığını vurğulayıb. Bu xüsusda, nəqliyyat dəhlizləri, kiçik və orta sahibkarlığın inkişafı, kənd təsərrüfatı, kibertəhlükəsizlik, ətraf mühit, gənclər, turizm, mədəni irsin mühafizəsi, humanitar minatəmizləmə, elm və təhsil kimi sahələrə xüsusi diqqət ayrılacağı bildirilib.

Azərbaycanın AQEM-ə sədrliyinin Müşavirənin beynəlxalq aktivliyinin artırılmasına və digər beynəlxalq və regional təşkilatlarla tərəfdaşlıq münasibətlərinin genişləndirilməsinə xüsusi diqqət ayırdığı qeyd olunub.

AQEM-in Baş katibi Kayrat Sarıbay tərəfindən Müşavirənin 2020-2024-cü illər ərzində - Qazaxıstan Sədrliyi dövründəki fəaliyyəti barədə hesabat verilib.

İclasın yekununda "AQEM üzv dövlətləri arasında münasibətlərin rəhbər prinsipləri haqqında Bəyannamə"nin 25 illiyi ilə bağlı Nazirlər Şurasının Bəyanatı, Etimad quruculuğu tədbirlərinin icrasının modallıqlarına dair Nazirlər Şurasının qərarı, Etimad quruculuğu tədbirlərin kataloqunun yenilənmiş versiyası və AQEM üzv dövlətlərinin Aparıcı Universitetlərinin Tərəfdaşlıq Şəbəkəsinin təsis edilməsinə dair Memorandum layihələri qəbul edilib.

# Qərb regionda genişmiqyaslı təxribatlara hazırlıq görür

## Papikyanın ABŞ-dən sonra Fransaya səfər etməsi məsələnin kifayət qədər ciddiliyindən xəbər verir



**Ermənistanın müdafiə naziri Suren Papikyan Fransaya işgüzar səfəri çərçivəsində E.Makronun hərbi müşaviri, hərbi kabinetin rəhbəri, ordu generalı Fabien Mandon ilə görüşüb. Görüşdə Ermənistanın Fransadakı fövqəladə və səlahiyyətli səfiri Arman Xaçatryan da iştirak edib. Regional və beynəlxalq təhlükəsizlik məsələləri də müzakirə olunub. Tərəflər bu məsələlərlə bağlı öz yanaşmalarını təqdim ediblər.**

Xatırladaq ki, Ermənistanın müdafiə naziri Suren Papikyanın başçılıq etdiyi nümayəndə heyəti dekabrın əvvəlində ABŞ-də səfərdə olub. Papikyan Pentaqon rəhbəri Lloyd Ostinlə görüşüb. Bu görüş regionda kəskinləşən geosiyasi vəziyyət fonunda ABŞ-nin Ermənistanla əməkdaşlığı genişləndirmək istəyinin açıq ifadəsi kimi dəyərləndirilib. Ostin görüşü "tarixi hadisə" adlandıraraq, ABŞ-nin Ermənistanın müdafiə və təhlükəsizlik sektorlarını gücləndirməkdəki artan rolunu vurğulayıb. Görüş zamanı Ermənistan silahlı qüvvələrinin islahatı, təhlükəsizlik məsələləri və Vaşinqton-İrəvan əməkdaşlığının perspektivləri müzakirə olunub. Ermənistan Müdafiə Nazirliyinin məlumatına görə, Lloyd Ostin Ermənistanın suverenliyinə dəstəyi bir daha təsdiqləyib və Ermənistan ordusunun islahatlarına yardım etməyə hazır olduğunu bildirib. Pentaqon tərəfindən son iki il ərzində Ermənistana əhəmiyyətli dəstəyin göstərildiyi vurğulanıb.

Görüş zamanı xüsusi diqqət ABŞ-nin Kanzas ştatının Milli Qvardiyasına yönəldilib. Ostin qeyd edib ki, "qurum Ermənistan ordusunun islahatlarına aktiv dəstək verir". Pentaqon rəhbəri Suren Papikyanın ABŞ-yə səfərini "ikitərəfli münasibətlərin möhkəmləndirilməsi istiqamətində mühüm siqnal" hesab etdiyini bəyan edəndən sonra , "Ermənistan ordusunun islahatlarının gələcəyi, eləcə də Cənubi Qafqazda uzunmüddətli sülh imkanları barədə müzakirələrə ümidini" ifadə edib. Ekspertlərin fikrincə, Ermənistan müdafiə nazirinin Qərbdə qapı-qapı dolaşması və hərbi əməkdaşlığı artırması Cənubi Qafqazda sülh və stabilliyin bərqərar olunmasına töhfə verən məqam sayıla bilməz. Bu cür təşəbbüslər regionun hərbiləşdirilməsi elementlərindən biri kimi qəbul olunur.

**Azad Vətən Partiyasının sədri Akif Nağı deyib ki, Ermənistanın müdafiə naziri Suren Papikyan öz heyəti ilə birlikdə Fransadan öncə ABŞ-də səfərdə olmuşdu. Həmin vaxt yayılan məlumatlardan əsas diqqətçəkən məsələ Ermənistan ordusunun yeni uniforması ilə bağlı müzakirələr oldu. Partiya rəhbəri bildirib ki, bunun həm də məcazi mənası odur ki, bundan sonra Ermənistan ordusunu Qərb ölkələri geyindirəcək, yedizdirəcək:** "Yeni erməni ordusunu öz istəklərinə, maraqlarına uyğun yetişdirəcəklər. Bu proses ABŞ Prezidenti Co Baydenin zamanında daha sürətlə gedib. ABŞ-nin hərbi müşavirləri, məsləhətçiləri Ermənistan ordusunun Baş Qərargahında fəaliyyət göstərirlər. Nəzərə almaq lazımdır ki, burada əsas məsələ Qərbin İrəvan üzərindən Cənubi Qafqazla bağlı öz planlarını icra etməkdir. Ermənistan müstəqil dövlət olmadığı, öz iradəsi ilə hərəkət etmədiyi üçün Qərb ölkələrindən təlimatlar alır. Təbii ki, Qərbin planlarından biri Ermənistanla bağlıdır. Ona görə də tez-tez erməni rəsmilərin ABŞ-yə, Fransaya səfərləri baş tutur. Onlara yeni tapşırıqlar verirlər".



**Siyasi şərhçi vurğulayıb ki, S.Papikyanın ABŞ-dən sonra Fransaya səfər etməsi məsələnin kifayət qədər ciddiliyindən xəbər verir:** "Xüsusən, Suriyada baş verənlərdən, Əsəd rejiminin devrilməsindən sonra Qərbin yeni planının işə düşmə ehtimalı yüksəkdir. Görünür, Ermənistan üzərindən də bölgədə Rusiyaya qarşı hansısa əməliyyat planlaşdırılır. Əlbəttə, bunun alınıb-alınmayacağını zaman göstərəcək. Ancaq görünən odur ki, Qərb regionda lokal və ya genişmiqyaslı təxribatlar törətməyə hazırlıq görür. Erməsntan da Qərbin proksi qüvvəsi, aləti kimi öz işini görməkdədir. Azərbaycan bütün təxribat cəhdlərinə hazır olmalıdır. Əminəm ki, rəsmi Bakı baş verə biləcəklərin fərqindədir və zəruri addımlar atılmaqdadır. Ortada Türkiyə amili də var. İstənilən situasiyaya adekvat cavab veriləcəyinə şübhə etmirəm".

İsmayıl



# Yeni qüvvə yaradılır

## Ermənistan orduda dəyişiklik edir

**Ermənistan hökuməti milis sistemini yerli müdafiə qüvvələri ilə əvəz etməyi planlaşdırır.**

Axar.az erməni mediasına istinadla xəbər verir ki, bu barədə Ermənistan müdafiə nazirinin müavini Arman Sərkisyan parlamentin Müdafiə və təhlükəsizlik məsələləri daimi komissiyasında "Müdafiə haqqında" qanuna əlavə və dəyişikliklərin edilməsini nəzərdə tutan layihə haqda danışarkən deyib. Layihəyə əsasən, yerli müdafiə qüvvələri ordu korpusu komandanlığına tabe olacaq və dəstək birləşmələri kimi hərbi birliklərə daxil ediləcək. Bu qüvvələrin vəzifələri, funksiyaları, idarəetmə prinsipləri və strukturu da müəyyən edilib.

# Ukraynaya köçürülən yardımın koordinasiyası ABŞ-dən NATO-ya keçib

**Ukraynaya göndərilən hərbi yardımın koordinasiya məsələsini ABŞ əvəzinə NATO öz üzərinə götürüb.**

Bu barədə "Reuters" mənbələrinə istinadən məlumat yayıb. Məlumata görə, bu addım Ukraynaya dəstək mexanizmini ABŞ-nin yeni seçilmiş prezidenti Donald Trampın mümkün addımlarından qorumaq üçün atılıb.

# Zelenski NATO-ya səsləndi

## "Verdiyiniz vədə əməl edin!"

**NATO verdiyi vədi yerinə yetirməlidir.** Axar.az xəbər verir ki, bu barədə Ukrayna Prezidenti Vladimir Zelenski videomüraciət zamanı deyib.

V.Zelenski ölkəsinin tərəfdaşlarını NATO-ya dəvət əvəzinə vəd edilən hava hücumundan müdafiə sistemlərini verməyə çağırıb. Onun sözlərinə görə, Ukraynaya artıq ona verilən sistemlərdən əlavə, 12-15 hava hücumundan müdafiə sistemi lazımdır: "Bu, real məqsəddir. Buna nail olmaq üçün yalnız Qərbin siyasi iradəsi lazımdır".



# Sarkisyan və Koçaryan istintaq prosesində dindirilməlidir

## Ermənistanda gizlənən cinayətkarların Azərbaycana ekstradisiyası mümkündür

**Azərbaycan Baş Prokurorluğu Bakıda həbsdə olan Qarabağdakı hərbi canilərin cinayət işi ilə bağlı Ermənistanın aidiyyəti orqanlarını əməkdaşlığa dəvət edib. Bu barədə Baş Prokurorluğun Bakıda həbsdə olan Qarabağ cinayətkarlarının işinin məhkəməyə göndərilməsi ilə bağlı yaydığı məlumatda qeyd olunub.**

Vurğulanıb ki, Baş Prokurorluq istintaq işi ilə əlaqədar qeyd olunan epizodlar üzrə şübhəli bilinən, eləcə də şahid qismində bir çox şəxslərin Ermənistan ərazisində olmasına ciddi əsasları rəhbər tutaraq, Ermənistanın aidiyyəti orqanlarını əməkdaşlığa dəvət edib.

**Hüquq müdafiəçisi Xəzət Teyyublu ”Şərq”ə açıqlamasında deyib ki, 1988-ci ildən etibarən Qarabağda başlamış qanlı hadisələr birbaşa cinayət xarakteri daşıyırdı. Ekspert vurğulayıb ki, hazırda Bakıda həbs həyatı yaşayan hərbi cinayətkarların liderləri öz qanunsuz fəaliyyətlərini icra edərkən onlara dəstək verən digər terrorçular da olub:** ”İstintaq zamanı ortaya çıxır ki, onların himayədarlarının olması faktları üzə çıxır. Diqqətə çatdırım ki, Ermənistanda qarabağlı ermənilər - Serj Sarkisyan, Robert Koçaryan uzun müddət hakimiyyətdə olublar. İstintaq prosesində onların da dindirilməsi zəruridir. Çünki adları çəkilən sabiq prezidentlər Qarabağda törədilmiş cinayətlərdə birbaşa məsuliyyət daşıyan şəxslər olub. Hazırda onlar Ermənistanda yaşayırlar. O baxımdan Baş Prokurorluğun bu məsələdə Ermənistanın hüquq-mühafizə orqanlarına müraciəti müsbət və təbii haldır. Bakıda həbs həyatı yaşayanlar Qarabağda uzun illər ərzində əsrin cinayətlərini törədiblər. İstintaq zamanı bir daha üzə çıxacaq ki, torpaqlarımızın işğalı, milyona yaxın soydaşımızın öz yurdundan qaçqın düşməsi, varını-yoxunu itirməsi hərbi cinayətkarların başıpozuq əməllərinin nəticəsi olub”.

**X.Teyyublu əlavə edib ki, məhz bu işğalçılıq siyasəti Azərbaycana yüz milyardlarla dollar maddi-mənəvi ziyan vurub, ölkəmizin genefonduna mənfi təsir göstərib:** ”Hərbi cinayətkarlar bütün bunlara görə cavab verməlidir. Əgər İrəvan hökuməti də sülh istəyirsə, gələcəkdə Azərbaycan-Ermənistan arasında baş tutacaq sülhün əsas predmetindən biri də Ermənistanın belə məsələlərdə məsuliyyətli davranmasıdır. Ermənistanda gizlənən cinayətkarların Azərbaycana ekstradisiyası mümkündür. Çünki onlar Azərbaycan vətəndaşı olublar və 1988-ci ildən etibarən cinayət əməllərinə başlayıblar. Prezidentlik dönəmlərində də Qarabağ cinayətkarlarına dəstək veriblər. Onların Azərbaycana təhvil verilməsi sülh sazişi və gələcək əlaqələr üçün də mühüm töhfə olar. Hüquq bərpa olunmalı və cinayətkarlar mütləq cəzalarını almalıdır. Yəqin ki, hazırkı Ermənistan rəhbərliyi də bu barədə əsaslı düşünəcək və reallığa uyğun ağıllı addımlar atacaq”.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə ”Şərq”ə bildirib ki, dekabrın 16-da Azərbaycan Respublikasının Baş Prokurorluğu qeyd olunan hərbi cinayətkarlarla bağlı ittiham aktı tərtib edərək iş məhkəməyə göndərilib:** ”İşin məhkəmə baxışı zamanı onlar vəkillə təmin olunacaqlar. Digər tərəfdən, Azərbaycan Respublikasının Baş Prokurorluğu təqsirkar şəxslərlə bağlı ittiham verilmiş epizodlar üzrə həm şübhəli, həm də şahid qismində olan şəxslərin Ermənistan ərazisində olmalarını rəhbər tutaraq bu dövlətin aidiyyəti orqanlarına əməkdaşlıq təklif edib. Yəni orada şübhəli şəxslər ola bilər ki, bu istintaqa cəlb edilsələr, hazırda hərbi cinayətkarlarla bağlı şahidlərin ifadələri məhkəmədə təqdim edilsə, bəzi qaranlıq məqamlara daha da aydınlıq gətirilə bilər. Digər tərəfdən, məhkəmə istintaqının da obyektiv olması üçün şahid və şübhəli şəxslərin məhkəmədə ifadə vermələri ilə bağlı Ermənistan Respublikasına da bir mesaj göndərmişik ki, əməkdaşlıq etsinlər. İndi növbə sizindir. Əgər bu məsələdə əməkdaşlıq etmək istəsəniz, Azərbaycan tərəfi buna hazırdır. Amma aparılan istintaq müddətində onlara irəli sürülmüş ittihamlar olduqca obyektiv və ədalətlidir. Eyni zamanda hər bir incəliyinə qədər proseslər araşdırılıb və ittihamlar əsaslı baza yaradılaraq irəli sürülüb. Çünki bu proses istintaq dövründə olduğu kimi məhkəmə dövründə də daima nəzarətdə olacaq. Ona görə ki, Azərbaycanı sevməyən və bu cinayətkarları dəstəkləyən qüvvələr prosesdən hər hansı problem taparaq onu şişirtməyə çalışacaqlar. Azərbaycan tərəfi bütün vasitələrdən istifadə etməklə həm onların sözünü kəsmək, həm də ədalətli məhkəmə prosesini keçirib sözügedən cinayətlərə uyğun ədalətli cəza almalarını etmək məqsədilə bu cür addımlar atır”.

**İsmayıl Qocayev,**
**Aynur Babazadə**

# Niderland da qoşuldu

## Səfirlərin “binokl diplomatiyası” ifşa olunmalıdır

**Ermənistan-Azərbaycan sərhədindəki Avropa İttifaqının (Aİ) dırnaqarası ”mülki müşahidə missiyası” fəaliyyətini başa çatdırmaq əvəzinə, təxribatları davam etdirməklə məşğuldur.**



Makron Fransası və Avropa İttifaqı vaxtı başa çatmış müşahidə missiyasını “vasitəçi” rolunda sırımağa çalışır

Fransanın İrəvandakı səfiri Olivye Dekotinin Ermənistanla şərti sərhədlərimizə gəlib ərazilərimizi müşahidə etməsinin ardınca, Niderlandın İrəvandakı səfiri Marike Monroy-Vinter də bədnam ”binokl diplomatiyası”na qoşulub. Xanım səfir Aİ-nin Ermənistandakı müşahidə missiyasının ofisində olub, həmin missiyanın tərkibindəki Niderlanddan olan şəxsi heyətlə görüşüb və Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazidə yerləşən Xaçık kəndi ərazisində patrul dəstəsinə qoşulub, ərazilərimizi durbinlə müşahidə edib.

**Siyasi şərhçi Əlisahib Hüseynov ”Şərq”ə deyib ki, Aİ müşahidəçilərinin və səfirlərin xətti ilə təxribatlar davam edir. Ekspertin sözlərinə görə, 2022-ci ilin oktyabrın 6-da Praqada razılaşdırılmış Aİ-nin Ermənistandakı müşahidə missiyasının fəaliyyəti, əslində, çoxdan bitməliydi:** ”Çünki bu missiya qısamüddətli missiya kimi yaradılmışdı. Lakin sonradan Makronun ”xeyir-dua”sı ilə Aİ və Ermənistan məkrli addım ataraq, sözügedən missiyanın fəaliyyət müddətini Azərbaycan tərəfi ilə razılaşdırmadan birtərəfli qaydada uzatdılar. Eyni zamanda missiyanın say tərkibini də genişləndirdilər. Avropa İttifaqına üzv olan ölkələrin və Kanadanın hərbçi zabitlərini, kəşfiyyatçılarını, jandarmlarını ”mülki müşahidəçi” adıyla həmin missiyanın tərkibinə daxil etdilər. Bu, Azərbaycana qarşı yönəlmiş açıq hərbi-siyasi təxribat idi. Görünən budur ki, onlar bu təxribatı davam etdirməyi və müşahidə missiyasını davamlı missiyaya çevirməyi qərara alıblar. Məqsəd isə Ermənistan və Azərbaycan arasında qarşılıqlı anlaşma və sülh şəraitində aparılan delimitasiya prosesinə müdaxilə etmək və vasitəçi rolunda çıxış etməkdir. Halbuki bu prosesdə nə Azərbaycanın, nə də ki Ermənistanın üçüncü tərəfin iştirakına hər hansı ehtiyacı yoxdur”.

**Analitikə görə, Makron Fransası və Avropa İttifaqı vaxtı başa çatmış müşahidə missiyasını ”vasitəçi” rolunda sırımağa çalışır:**

“Bu isə o deməkdir ki, Avropa İttifaqının Ermənistandakı missiyası hazırda regionda sülhün möhkəmləndirilməsinə yox, gərginlik yaradılmasına xidmət edir. Avropa İttifaqının bu mövqeyi ciddi narahatlıq doğurur. Gürcüstanda mövqeləri sarsılan Avropa İttifaqı Ermənistanın əliylə regionda varlığını qorumağa çalışır. Ancaq bu cür qeyri-legitim üsullarla regionda möhkəmlənmək cəhdləri Avropa İttifaqının gözləntilərini doğrultmayacaq. Azərbaycanın avropalı səfirlərin sərhədlərimizdəki ”binokl diplomatiyası”na göz yummaq fikri yoxdur. Avropa İttifaqı bu cür narahatedici hallara son qoymalıdır”.

**Siyasi şərhçi Azər Həsrət ”Şərq”ə söyləyib ki, Niderlandın Ermənistandakı səfirinin Fransa səfiri kimi təxribatçı gedişi xoş deyil:** ”Rəsmi Bakı birmənalı olaraq bütün dünyaya bəyan edir ki, üçüncü tərəflərin müdaxiləsi olmadan Azərbaycan-Ermənistan münasibətləri daha tez normallaşar. Amma Azərbaycanın bu xoşməramlı çağırışını Avropa dövlətləri qulaqardına vuraraq Ermənistanı qızışdırmaqla məşğuldurlar. Ümumiyyətlə, iki ölkə arasında sülh müqaviləsinin baş tutmamasına çalışırlar. Niderland səfirinin şərti sərhədimizdə özünü göstərməsi, müşahidə missiyasının tərkibində müşahidə xidməti aparması həmin qəbildəndir. Yəni sözügedən hadisə növbəti təxribatdır. Burada məqsəd Azərbaycanı qıcıqlandırmaq, tərəflər arasında gərginliyi artırmaqdır. Onlar anlayırlar ki, sülh müqaviləsi imzalandıqdan sonra Ermənistan Azərbaycan və Türkiyə ilə münasibətlərini normallaşdırsa, rəsmi İrəvan Qərb dövlətlərinin əlində oyuncaq olmayacaq. Əlbəttə, Niderland kimi bir dövlətin təmsilçisi bu səhvi etməli deyildi. Ancaq sözügedən addım yanlışlıqla baş tutmayıb və məqsədli şəkildə həyata keçirilən təxribatdır”.

**İsmayıl Qocayev,**
**Şahanə Ziyad**

# Ankaranın bölgədə mövqeyi güclənir

## Yaxın Şərqdə Türkiyənin olmadığı masada heç bir geosiyasi layihə həyata keçirilə bilməz

**Təbii ki, Suriyada baş verən hadisələr fonunda İsrail və Türkiyənin uğurları bölgəmizə doğru hərəkət edəcək. Türkiyə, İsrail və onların müttəfiqləri - yəni Azərbaycan - ətrafımızda cərəyan edən regional proseslərdə daha inamlı mövqedən çıxış edəcək. Bu sözləri erməni ekspert Şiraz Xaçatryan yerli mediaya geniş müsahibəsində deyib.**



O bildirib ki, Rusiya və İranın Suriyada faktiki məğlubiyyəti fonunda xüsusilə Türkiyənin təsir imkanlarının son dərəcə genişlənməsi regional tənzimləmədə əhəmiyyətli dəyişiklik deməkdir. Həmçinin qeyd edib ki, hazırda regionumuzda daha aktiv addımlar atmaq, böyük oyunçularla yeni sövdələşmələr aparmaq üçün Türkiyənin əla fürsəti yaranıb. Deməli, Suriyada hərbi və siyasi baxımdan yekun nizamlanmadan sonra bölgəmizdə maraqlı inkişaflar başlaya bilər. Onun sözlərinə görə, Suriyada müxalifətin hakimiyyətə gəlməsi ilə İran Hizbullaha çatmaq üçün əsas quru yolunu, eyni zamanda bu ölkədə İsraillə döyüşmək imkanı olan proksilərini itirdi. Bundan əlavə, İranın Aralıq dənizinə çıxışı daha da çətinləşdi və məhdudlaşdı. Deməli, Əsədin gedişi vəziyyəti kökündən dəyişir və İranın bölgədəki mövqeyi zəifləyir, o, özünün proksi qüvvələri ilə əlaqədən və kommunikasiyalara nəzarətdən məhrum olur. Hazırda görünən odur ki, ABŞ və kollektiv Qərb müttəfiqləri Türkiyə və İsrail timsalında Suriyada ciddi uğurlar qazanıb, orada Rusiya və İranın mövqelərini zəiflədiblər. Xüsusilə də, Türkiyənin Yaxın Şərqdə uğurları bölgəmizdə davam edəcək. Necə, hansı alətlərlə və hansı məsələlər çərçivəsində? Aydındır ki, Türkiyə üçün ilk və əvəzolunmaz layihələrdən biri Zəngəzur dəhlizidir. Türkiyə də dəfələrlə bəyan edib ki, Zəngəzur dəhlizi ilə bağlı problem Ermənistanda deyil, İrandadır. Və hadisələrin necə inkişaf edəcəyi, Suriyadan sonra Yaxın Şərqdə hansı hərbi-siyasi vəziyyətin yarana biləcəyi, İranın ətrafındakı halqanın necə daralacağı və İranın bu çağırışlara necə reaksiya verəcəyi məsələsi var. O, təəssüflə qeyd edib ki, artıq İran ətrafında dairə daralır.

**Politoloq Natiq Miri ”Şərq”ə söyləyib ki, mövcud reallıq Türkiyənin bölgədə geosiyasi mövqelərinin gücləndiyini göstərir**: ”Eyni zamanda Yaxın Şərqdə, xüsusilə də Suriyada Türkiyənin olmadığı masada heç bir geosiyasi layihə həyata keçirilə bilməz. Türkiyə bölgədə həlledici səsə çevrilir. Amerika Birləşmiş Ştatlarının yeni seçilən Prezidenti Donald Tramp son çıxışında Suriya məsələsini Türkiyəyə buraxdığını söylədi. Donald Trampın bu açıqlaması artıq reallığın qəbul olunmasıdır. Baxmayaraq ki, bu günə qədər uğursuz Bayden administrasiyası antitürk siyasətini davam etdirməkdədir. Nəzərə almaq lazımdır ki, son proseslər coğrafiyada siyasi xəritələri dəyişir və dünyanın yenidən şəkilləndiyini görürük. Türkiyənin isə bu şəkillənmədə söz sahibi olmaq gerçəkliyi mövcuddur. Həmçinin Türkiyənin gücünün üstünə Azərbaycanı və Mərkəzi Asiyada olan Türk Cümhuriyyətləri Birliyini də gəlsək, gələcək perspektivdə həmin birliyin qlobal güc mərkəzlərindən biri olmaq iddiasına namizəd olacağını söyləmək mümkündür. Ona görə də sözügedən məsələləri daha da aktivləşdirməyə və gücləndirməyə ehtiyac var. Suriyada güclənən qüvvənin digər regionlarda, o cümlədən Cənubi Qafqazda tədricən proseslərdə iştirakını təmin edəcək. Türkiyə rəhbərliyinin Azərbaycan-Ermənistan arasında sülh prosesinin son mərhələyə qədəm qoyduğu ilə bağlı açıqlamaları da sözügedən kontekstdə dəyərləndirmək lazımdır. Türkiyə dolayısı ilə Cənubi Qafqazda yeni münaqişə ocaqları yaratmaq istəyən qüvvələrin əleyhinə sülhü təmin etməklə regionun təhlükəsizliyini təmin etmək siyasətini yürüdür. Bu isə böyük ölkələrin güc mərkəzlərinin işidir. Türkiyənin iddialı siyasəti də bunu ortaya qoyur. Hansısa iddianın arxasında güc dayanmırsa, heç kəs ona inanmaz. Ona görə də Yaxın Şərqdə, Cənubi Qafqazda, Rusiya-Ukrayna müharibəsində və Avrasiyada Türkiyənin getdikcə təsir imkanlarını artırır”.

**Ekspert söyləyib ki, Türkiyəni nəzərə almadan həmin bölgələrdə böyük geosiyasi layihələri həyata keçirmək mümkün olmayacaq:** ”Məsələn, Qətərdən Səudiyyə Ərəbistanı, İordaniya, Suriya və Türkiyə vasitəsilə Avropaya qaz xəttinin çəkilməsi layihəsi mövcud idi. Rusiya və İran Avropa bazarını itirməmək üçün həmin prosesi əngəllədilər. Lakin hazırda vəziyyət dəyişib, Türkiyə Rusiya, Azərbaycan, Qətərdən gələcəkdə isə Aralıq dənizindən Avropaya daşınacaq qaz mərkəzinə çevrilir. Qardaş Türkiyənin güclənməsindən narahat olan dövlətlər var. Həmin dövlətlərin sırasında Türkiyənin dırnaqarası strateji NATO üzrə müttəfiqləri də mövcuddur. Həmin dövlətlər gerçəkliyi qəbul etmək məcburiyyətindədirlər. Türkiyənin güclənməsi Azərbaycanın güclənməsi deməkdir. Türkiyənin Suriya uğurundan sonra ilk yardımla bağlı konkret əməli müraciət edən Azərbaycan oldu. Azərbaycan Prezidenti İlham Əliyev Suriya xalqına hər cür dəstək verəcəyi ilə bağlı hazır olduğunu bildirdi. Prezidentin açıqlaması Azərbaycanın Türkiyənin yanında olduğunun göstəricisidir”.

**Şahanə Ziyad**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 16-da Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallagerlə görüşündə Yaxın Şərqdəki vəziyyətə toxunulub.**



Prezident İlham Əliyev Əsəd rejiminin çökməsindən sonra qardaş Türkiyə ilə məsləhətləşərək Suriya xalqının üzləşdiyi humanitar problemlərin həllinə dəstək verməyə hazır olduğunu bir daha qeyd edib.

# Suriya təkcə Yaxın Şərq məsələsi deyil

## Azərbaycan Türkiyənin sülhə verdiyi töhfəyə kömək göstərmək niyyətindədir

**Milli Məclisin deputatı Elman Nəsirov ”Şərq”ə bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dekabrın 16-da Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallageri qəbul etdi**: ”Görüş əsnasında Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında əlaqələrin dinamik inkişaf tempinə malik olduğu vurğulanıb. Xüsusilə də 2016-cı ildə Roma Papasının Azərbaycana gəlməsi və 2020-ci ildə İlham Əliyevin Taxc-Taca səfəri qeyd olunub. Bütün bunlar ikitərəfli siyasi dialoqun yüksək səviyyədə olduğu fikrini təsdiqləyir. Eyni zamanda Paul Riçard Qallageri ölkəmizə səfərinin məqsədini II İvan Pavelin şərəfinə katolik kilsəsinin tikilməsinə görə yerin ayrılması məsələsinə hesablandığını söyləyib. O, İlham Əliyevə belə bir təşəbbüsə görə təşəkkür edib. Bu Azərbaycan katolik icması sözügedən qərardan çox məmnun oldu. Azərbaycan Prezidenti bildirdi ki, ölkəmiz multikultural dövlətdir. Bu bizim dövlət siyasətimiz və zənginliyimizin ifadəsidir. Ona görə də ölkəmizdə müxtəlif dinlərin daşıyıcıları bir ailə kimi yaşayırlar və biri-birilərini dəstəkləyirlər. Ölkəmiz COP29 uğurla ev sahibliyi etdi və tədbir ərəfəsində Dünya dini liderlərinin Sammiti baş tutdu. Sammit bir daha sübuta yetirdi ki, Azərbaycan dünyada multikultural dəyərlərin inkişaf etdiyi və yayıldığı mühim mərkəzlərdən birinə çevrilib. Görüş zamanı Yaxın Şərqdəki son vəziyyət müzakirə olundu və İlham Əliyev bölgə ilə bağlı narahatlıqlarını qeyd etdi. Həmçinin söylədi ki, Azərbaycan Bəşər Əsəddən sonrakı Suriyada gərginliyin aradan qaldırılması və mübahisəli məsələlərin sülh yoluyla həllini dəstəkləyir. Azərbaycan qardaş Türkiyə ilə birgə həmin problemlərin həllində yaxından iştirak etməyi düşünür. Azərbaycan Türkiyənin sülhə verdiyi töhfədə və əhalinin humanitar sahədə üzləşdiyi problemlərin həllinə kömək göstərmək niyyətindədir”.

**Şahanə Ziyad**



# "Kitab sevdiyin qız kimidir, sinənə qoyub yata da bilərsən"

## Aqil Abbas: "Amma elektron kitab oxumaq əleyhqaz geyinib qızılgül iyləməyə bənzəyir"

**Rəqqasların daha tez təqaüdə çıxması ilə bağlı təkliflər hazırlanır. Bu barədə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu komitənin iclasında deyib. Komitə sədri hazırda təkliflər üzərində işlədiyini və gələn il müzakirəyə təqdim edəcəyini bildirib:**

"Əvvəl rəqqaslar 20-22 il işlədikdən sonra təqaüdə çıxa bilirdilər. İndi isə rəqqaslar 65 yaşa kimi rəqqaslıqla məşğul olandan sonra təqaüdə çıxır. Bu, gülməli bir şeydir. Nazirlər Kabinetinin qərarı var ki, bu, 5 yaş azaldıla bilər. Xahiş etmişəm ki, məsələni müzakirə edək. Qanuna dəyişiklik edək ki, onlar rahat 20-22 ildən sonra təqaüdə çıxa bilsinlər və özlərinə layiqli təqaüd alsınlar. 65 yaşında da rəqqas olar?".

Polad Bülbüloğlu bildirib ki, regionlarda fəaliyyət göstərən kitabxana və muzeylərin, o cümlədən musiqi məktəbi və mədəniyyət mərkəzlərinin rəhbərləri Milli Məclisə dəvət ediləcək. O qeyd edib ki, Mədəniyyət Nazirliyinin rəhbərliyi də bu məsələdə parlamentin Mədəniyyət komitəsinə köməklik göstərməyə hazırdır: "Mən bu təsisatlardakı vəziyyətlə yaxından maraqlanmaq, orada hazırda durumun necə olduğunu öyrənmək istəyirəm. Həmin şəxslərlə görüşümüzdə onların da fikir və təkliflərini dinləyəcəyik".

"Kitabxana işi haqqında" və "Muzeylər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə çıxış edən millət vəkili Aqil Abbas deyib ki, kitabxanalarda Marksın, Engelsin kitabları olmalıdır, keçmişi də bilməliyik. Deputat bildirib ki, indi hamı öz cibindən kitab buraxdırır: "Özü kitab çıxaranlardan heç kim də kitabları kitabxanaya vermir. Məsələn, mən cibimdən hər ay 100-200 manat verib yazıçı, şairlərin kitablarını alıram. Bu gün elə kitabxanalar var ki, heç işləmir. Hamı elektron kitab oxuyur. Amma elektron kitab oxumaq əleyhqaz geyinib qızılgül iyləməyə bənzəyir. Kitab sevdiyin qız kimidir, sinənə qoyub yata da bilərsən. Kitabın iyisi, qoxusu var. Lenin kitabxanası ləğv olundu, oradakı kitabların hamısını aparıb tökdülər Binəqədi düzənliyinə. Gedib oradan kitab seçmişdim. Sonra dostumuz İlqar Əlfioğlu maşın-maşın oradan kitab seçib həbsxanalara apardı. Yəni ora ən qədim kitabxana idi, dağıtdılar".

**A.Abbas bildirib ki, kitabxana yaralı yeridir:** "Bir dəfə Ağcabədinin Kəhriz kəndində muzey açmışdıq. İki qadın işləyirdi və aşağı maaş alırdılar. Onda Polad müəllim nazir idi. Dedim ki, onların maaşlarını artıraq. Onda bildirdi ki, maaşı Tarif Şurası artırır. Təklif etdim ki, bir biclik etmək olar. Dedim onların həyat yoldaşlarının birinə bağban, digərinə isə mühafizəçi ştatı verin. Onlar da işləyəndən sonra ikisinin də maaşı düzələcək".

**İsmayıl**

# Polis Akademiyasında təhsil almaq istəyən abituriyentlər üçün müsabiqə elan edilir





**Daxili İşlər Nazirliyinin Polis Akademiyasına əyani təhsilə III qrupdan hüquqşünaslıq ixtisasına 500, I qrupdan informasiya təhlükəsizliyi ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edilir.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 sm-dən az olmayan, yaşı 16-dan 18-dək 11-ci sinifdə oxuyan və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Xüsusi təyinatlı təhsil müəssisəsinə sənədlərin qəbulu 2025-ci il fevralın 23-dək namizədin daimi qeydiyyatda olduğu yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir.

Hüquqşünaslıq və informasiya təhlükəsizliyi ixtisas fənləri üzrə müsabiqədən keçən abituriyentlərin siyahısı Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Seçilən abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır.

Tədris Azərbaycan dilindədir, müddəti 4 ildir.

Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar.

Məzunlara hüquqşünaslıq və informasiya təhlükəsizliyi ixtisasları üzrə "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

*Qəbul qaydaları haqqında daha ətraflı məlumatı (012)-590-97-76, (012) 454-12-78, nömrəli telefonlar, habelə Polis Akademiyasının 8880 qaynar xətti vasitəsilə və ya www.mia.gov.az, www.pa.edu.az internet saytlarından, Polis Akademiyasının rəsmi instaqram və feysbuk sosial şəbəkələrindən əldə etmək olar.*



# Türkiyə Suriyanı terror yuvasından xilas edəcək

## Tramp da bu ölkədə yaşanacaq hadisələrin açarının Türkiyədə olduğunu deyir

**Beynəlxalq ictimaiyyət Suriya xalqına 13 il ərzində lazımi dəstəyi göstərməyib, göstərə bilməyib. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Avropa İttifaqı (Aİ) Komissiyasının sədri Ursula fon der Lyayenlə görüşündən sonra mətbuata açıqlamasında deyib.**

Ərdoğan həmçinin ölkəsinin Suriya ilə əməkdaşlığa hazır olduğunu ifadə edib və Dəməşqdəki Türkiyə səfirliyinin bərpası məsələsinə də toxunub: "Türkiyə bundan sonra da Suriyanın yanında olmağa davam edəcək. Suriyanı terror yuvası olmaqdan xilas etmək lazımdır".

Qeyd edək ki, Rusiya Suriyadan hərbi texnikalarını çıxartmağa davam edir. Rusiya bu dəfə Lazkiyə şəhərindən qüvvələrini çıxarmağa başlayıb. Daşınan silahlar arasında zirehli texnikalarla yanaşı, S-400 batareyaları da olub. Rus qoşunları daha əvvəl paytaxt Dəməşqdən də çıxarılmışdı. ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp Suriyada yaşanacaq hadisələrin açarının Türkiyədə olduğunu deyib. Türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan barədə də danışan Tramp onun çox ağıllı və güclü bir lider olduğunu qeyd edib: "Ərdoğan mənim yaxşı anlaşdığım biridir. O, çox güclü ordu qurdu".

Tramp Bəşər Əsədin də uşaqlara etdikləri ilə bir qəssab olduğunu qeyd edib. ABŞ-nin BMT-dəki nümayəndəliyinin keçmiş rəhbəri Nikki Heyli də deyib ki, Donald Tramp vəzifə səlahiyyətlərinin icrasına başlayanda etməli olduğu ilk iş türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana zəng etməkdir. O, bunu Tramp üçün fürsət kimi dəyərləndirib: "Unutmayın ki, Rusiya-Ukrayna müharibəsində Ərdoğan Kiyevin tərəfindədir. Əgər Tramp İranı zəiflətmək və Ukrayna-Rusiya arasında ixtilafa son qoymaq istəyirsə, ilk növbədə Türkiyə və Ərdoğanla əlaqə qurmalıdır".

Məlumat üçün deyək ki, Türkiyə kəşfiyyatının rəhbəri İbrahim Kalın Suriyanın paytaxtı Dəməşqə gedərək müvəqqəti hökumətin rəhbərliyi ilə görüşüb.

**Siyasi ekspert Zeynal Əmralıyev "Şərq"ə deyib ki, Türkiyə Suriyada hakim mövqeyə yüksəlir. Onun sözlərinə görə, MİT rəhbərinin Dəməşq səfəri də bir neçə aspektdən mühüm hadisədir:** "İbrahim Kalın Bəşər Əsəd hakimiyyətdən devrildikdən sonra Suriyanı ziyarət edən ən yüksək rütbəli xarici qonaqdır. Bu məsələ Türkiyənin bölgədə nüfuzu və Suriyanın gələcəyinin qurulması yolunda da mühüm əhəmiyyət kəsb edən məsələdir. Kalın Türkiyənin mövqeyini Suriyanın yeni rəhbərliyinin diqqətinə çatdırıb. "Təhrir əş-Şam"ın rəhbərliyi də Ankara ilə münasibətlərə xüsusi önəm verir. MİT rəhbəri Dəməşqə məhz onların dəvəti ilə gəlib. İkinci vacib məsələ Suriyanın yeni rəhbərliyinin özünün əsas müttəfiqi ilə bağlı artıq seçim etməsidir. Əbu Məhəmməd Əl-Colaninin İbrahim Kalınla səmimi münasibəti, onun xidməti avtomobilini şəxsən idarə etməsi Suriyada hakimiyyəti ələ keçirən bu qrupun Türkiyəyə olan rəğbətindən xəbər verir. Ankaranın ilk günlərdən zalım Əsəd rejiminə etirazını bildirərək Suriya xalqının yanında yer alması, minlərlə suriyalı qaçqına qucaq açaraq onları ölümdən xilas etməsi vəziyyəti buralara gətirdi".

**Z.Əmralıyevin fikrincə, İbrahim Kalının səfərinin ana mətnini şübhəsiz ki, iki məsələ təşkil edir:** "Birincisi, PKK uzantısı olan YPG-PYD qruplarının Türkiyə sərhədləri ətrafında fəallığının artmasıdır. Bu, Ankaranı ciddi şəkildə narahat edir. Türkiyənin dəstək verdiyi Azad Suriya Ordusunun keçirdiyi əməliyyatla Menbiç və onun ətrafının terrorçulardan təmizlənməsi Türkiyənin mövqeyini xeyli tərəfə möhkəmləndirdi. Ancaq rəsmi Ankara Suriyadan özünə qarşı heç bir təhdid istəmir və ölkənin terrorçu dəstələrdən tamamilə təmizlənməsini istəyir. Bu, "Təhrir əş-Şam" rəhbərliyinin də arzusudur. Paytaxtda mərkəzi hakimiyyəti ələ almış bu qrup ölkədə hansısa "boz zona"nın mövcudluğunu qəbul etmir. Başqa məsələ isə Suriyanın yenidən qurulmasıdır. 13 illik vətəndaş müharibəsi ölkənin tamamilə dağılmasına, ölkənin bütün infrastrukturunun sıradan çıxmasına səbəb olub. Yeni hökumətin əsas problemi məhz ölkənin yenidən qurulması olacaq. Bu işdə Türkiyənin dəstəyi vacibdir. Ankara Türkiyəyə sığınmış suriyalı qaçqınların evlərini təmir edərək onların köçürülməsini həyata keçirə bilər. Eyni zamanda Suriyadan Türkiyəyə dönəcək olan şəxslərdə Ankaranın gücünə güc qatacaq. Onların Türkiyə ilə çox sıx bağı var və faktiki olaraq Suriyada türk dövlətinin ən böyük dəstəkçisinə çevriləcəklər. Suriyada türk lirəsinin əsas ödəniş vasitəsinə çevrilməsi də Ankaranın bu ölkədə tək güc olduğunu ortaya qoyur. Heç təsadüfi deyil ki, ABŞ-nin Dövlət katibi Antoni Blinken məsləhətləşmələr aparmaq üçün Ankaraya gəlir. Avropa ölkələri də Suriya ilə bağlı Türkiyə ilə koordinasiyalı şəkildə çalışırlar. Artıq bütün dövlətlər Türkiyənin Suriyada qeyd-şərtsiz qalib gəldiyini təsdiqləyirlər. Görünən odur ki, Suriyada yeni düzən məhz Ankaranın istəyinə uyğun şəkildə qurulacaq".

**İsmayıl Qocayev**



# Azərbaycan Paşinyanla deyil, Ermənistanla sülh müqaviləsi imzalayacaq

## Erməni toplumunun nəbzini test etmək üçün ən gözəl nümunə referendumun keçirilməsidir

**"Azərbaycan tərəfi Baş nazir Nikol Paşinyanla deyil, Ermənistan dövləti ilə sülh müqaviləsi imzalayacaq".**

*Bu barədə siyasi şərhçi İlyas Hüseynov deyib. Ekspert bildirib ki, Nikol Paşinyan hazırda öz komandası ilə birlikdə Ermənistanda hakimiyyət başındadır. Ancaq gələcəkdə Paşinyan və komandası hakimiyyətdə olmayacaq:* "Yeni hakimiyyət indiki Ermənistan Konstitusiyasını əsas götürərək yeni müharibə dalğasını, müharibəni, silahlanmanı başlada, özünə tərəfdarlar toplaya bilər. Bu da Cənubi Qafqazda yenidən böyük bir müharibənin başlanması deməkdir. Əsas risk budur. Sosial şəbəkədə ermənilərin davranışlarını, yanaşmalarını izləyirik. Məsələn, deyək ki, işğaldan azad edilmiş ərazilərimizdə bədbəxt hadisə baş verir, mina terroru yaşanır, hərbi, yaxud mülki vətəndaşımız həyatını, sağlamlığını itirir. Ermənilər bunu bayram edirlər. Ona görə də bizə maraqlıdır ki, erməni toplumu həqiqətən sülh istəyirmi? Bunu yoxlamaq üçün, daha doğrusu, test etmək üçün ən gözəl nümunə referendumun keçirilməsidir. O zaman biləcəyik ki, erməni ictimaiyyətinin neçə faizi Azərbaycanla sülhə, sabitliyə tərəfdardır. Bilək ki, erməni cəmiyyətində revanş əhvali-ruhiyyəsi varmı? Ermənistan hakimiyyəti ilk növbədə bunu həyata keçirməlidir".

*İ.Hüseynov əlavə edib ki, Paşinyan düşünür ki, əgər Konstitusiya dəyişikliyinə gedərsə, ayrı-ayrı güc mərkəzlərinin Ermənistana müdaxiləsi reallaşa bilər:* "Bu da Paşinyanın özünə qarşı əhvali-ruhiyyəni gücləndirər. Ona görə də hiyləgərcəsinə planlar qurur. Paşinyan referendumu 2027-ci ilə yubatmaqla ora avrointeqrasiya məsələsini də salıb. Bunu da öz hakimiyyəti naminə etməyi düşünür. Nəzərə alaq ki, 2026-cı ildə Ermənistanda parlament seçkisi keçiriləcək. Paşinyan həmin seçkidə qələbə qazanaraq hakimiyyətini möhkəmləndirmək və sonra referenduma getmək niyyəti güdür. Həm də bir çox regionda baş verən münaqişələrin hansı sonluqla bitəcəyini gözləyir".

**İsmayıl**

# Kaya Kallas Makronun "ağzından vurdu"

## Avropa İttifaqı nümayəndəsi etirazında haqlıdır



"Müharibə bitməmiş Ukraynaya müşahidəçi missiyanın göndərilməsinin müzakirəsi ölməmiş ayının dərisinin bölüşdürülməsinə bənzəyir"



**Avropa İttifaqının xarici işlər və təhlükəsizlik məsələləri üzrə nümayəndəsi, Estoniyanın keçmiş baş naziri Kaya Kallas yeni vəzifəsində Brüsseldə üzv ölkələrin xarici işlər nazirlərinin ilk toplantısını keçirib.**

3 mövzu - Rusiya-Ukrayna müharibəsi, Gürcüstanda siyasi böhran və Suriyada hakimiyyət dəyişikliyi müzakirə olunub. Xarici işlər nazirləri Rusiyaya qarşı növbəti 15-ci sanksiya paketini qəbul ediblər. Buna baxmayaraq, Avropa İttifaqı Fransa Prezidenti Emmanuel Makronun "müharibə bitəcəyi təqdirdə Ukraynaya Avropa müşahidə missiyasını göndərək" təklifini qəbul etməyib. Kaya Kallas bu məsələnin müzakirəsinin erkən olduğunu bildirib.

**"Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu da "Şərq"ə açıqlamasında Avropa İttifaqı nümayəndəsinin haqlı olduğunu deyib. Onun fikrincə, müharibə bitməmiş Ukraynaya müşahidəçi missiyanın göndərilməsinin müzakirəsi ölməmiş ayının dərisinin bölüşdürülməsinə bənzəyir:** "Digər tərəfdən, ABŞ-nin yeni Prezidenti Donald Tramp yanvarın 20-də andiçmə mərasimindən sonra müharibəni dayandırmağı planlaşdırır. Onun planında isə Avropa müşahidə missiyasının Ukraynada yerləşdirilməsi bəndi barədə məlumat yoxdur. Kaya Kallas Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının da geri çağırılması barədə düşünməlidir. Bu da Makronun ideyası idi, bölgəyə gərginlikdən başqa heç nə gətirmədi. Brüsseldə Gürcüstana qarşı sanksiyaların tətbiqi müzakirə olunsa da, yekdil qərar qəbul etmək mümkün olmayıb. Məsələ burasındadır ki, Avropa İttifaqının 27 ölkəsinin tamamı Gürcüstanla bağlı eyni fikirdə deyil, məsələn, Macarıstan və Slovakiya sanksiyaların əleyhinədir, hətta Lüksemburqun xarici işlər naziri Ksavye Bettel də Brüsseldəki çıxışında "Gürcüstan hökumətinin etirazçılara qarşı davranışını tənqid etməklə yanaşı, "Gürcü arzusu" Partiyasının parlament seçkisində yaxşı nəticə göstərdiyinə görə cəzalandırılmasını doğru hesab etmirik" cümləsini işlədib. Beləliklə, Avropa İttifaqı Gürcüstanla bağlı gözləmə mövqeyinə keçib. Görünür, anlayırlar ki, Gürcüstan hökumətinə qarşı sərt qərarlar, rəsmi Tbilisini Rusiyaya daha çox yaxınlaşdıra bilər".

**Politoloq hesab edir ki, Avropa İttifaqı Əsəd rejiminin süqutunu dəstəkləsə də, Suriyada hakimiyyətə gələn qüvvələri tanımağa hazır deyil:** "Buna baxmayaraq, Kaya Kallas Dəməşqə avropalı diplomatlardan ibarət nümayəndə heyəti göndərməyə qərar verib. Brüssel nəbz yoxlaması həyata keçirir, "Heyəti Təhriri Şam" (HTŞ) ilə təmaslarda digər oyunçulardan geri qalmaq istəmir".

**Şəymən**




# Olduğu kimi görünən, göründüyü kimi olan şəxsiyyət

## Şirməmməd Hüseynov qaranlıqda görünən işıq idi

**Görkəmli alim, araşdırmaçı, Əməkdar jurnalist Şirməmməd Hüseynovun anadan olmasının 100 ili tamam olub. Şirməmməd Hüseynov 1924-cü il dekabrın 17-də Şəkidə anadan olub. Böyük ömür yolu keçən Şirməmməd müəllim Azərbaycan tarixinin ən önəmli olaylarının canlı şahidinə çevrilib.**

Elmi fəaliyyətini əsasən Azərbaycan jurnalistikası tarixinin öyrənilməsinə həsr etmiş Şirməmməd Hüseynov 30-dan çox kitab və monoqrafiya, 800-dən artıq elmi və elmi-publisistik məqalə yazıb. Yüzlərlə jurnalist kadrların yetişməsində böyük əmək sərf etmiş Şirməmməd müəllim auditoriyalarda hər zaman yenilikçi ruhu ilə seçilib. Onun mühazirələri, söhbətləri tələbələrində dərin təsir oyadıb.

Qeyd edək ki, Ş.Hüseynov 1940-cı ildə Şəki şəhəri Mirzə Fətəli Axundzadə adına 2 nömrəli orta məktəbi bitirib, 1940-1942-ci illərdə Şəki ikiillik Müəllimlər İnstitutunun Fizika-riyaziyyat fakültəsində oxuyub. 1945-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinin Jurnalistika şöbəsində təhsil alıb. Universiteti fərqlənmə diplomu ilə başa vurduqdan sonra M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsinin aspiranturasına qəbul olub, 1954-cü ildə təhsilini tamamlayıb və dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi alıb. Həmin ildən Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Jurnalistika kafedrasında elmi-pedaqoji fəaliyyətə başlayıb və ömrünün sonunadək orada baş müəllim, dosent, 1962-1969-cu illərdə Filologiya fakültəsinin dekan müavini, 1970-1976-cı illərdə Jurnalistika fakültəsinin dekanı, 1976-1988-ci illərdə Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri olub, 1988-ci ildən isə həmin kafedranın professoru vəzifəsində çalışıb.

O, Azərbaycan klassik jurnalistikasının görkəmli simaları Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu, Cəlil Məmmədquluzadə irsini hərtərəfli araşdırıb. Alimin Azərbaycan Xalq Cümhuriyyəti qurucularının fəaliyyətinə dair araşdırmaları həm də tariximizin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Ş.Hüseynov Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni səviyyəyə yüksəldib. Yüzlərlə jurnalistin ustadı kimi şöhrət qazanıb. Tələbələri onun müəllim kimi əməyini minnətdarlıq hissi ilə xatırlayırlar.

Qeyd edirlər ki, Şirməmməd Hüseynov şəxsiyyət kimi əbədiyaşarlıq qazanaraq hələ sağlığında ikən canlı əfsanəyə çevrilmiş elm adamı idi. O, təkcə müdrik elm adamı deyil, həm də güclü mənəviyyat adamı idi.

Şirməmməd Hüseynov milli yaddaşımızın daşıyıcısı idi, əsərləri Azərbaycanın dünəni və bu günü arasında mənəvi körpü rolu oynayırdı. Onun Azərbaycan Xalq Cümhuriyyətinin, Məhəmməd Əmin Rəsulzadə irsinin öyrənilməsində, təbliğində misilsiz xidmətləri olub. Mətbuat tariximizin qaranlıq səhifələrinə işıq salanların sırasında Ş.Hüseynovun adı ön cərgədə çəkilir. O, ”Həqiqət və ədalət carçısı”, ”M.Ə.Rəsulzadə”, ”Mənəvi irsimiz və gerçəklik”, ”Mətbu irsimizdən səhifələr” və digər dəyərli kitabların və əsərlərin, həmçinin çoxsaylı dərslik və dərs vəsaitlərinin müəllifi idi.

Azərbaycan mətbuat tarixi alimin əsas tədqiqat sahəsi olsa da, Ş.Hüseynov bütövlükdə jurnalistikanın inkişafına, bugünkü kadrların yetişməsinə böyük töhfə vermiş şəxsiyyətlərdən idi. Bu gün Şirməmməd Hüseynovdan gənc nəsillərə onun ideyalarını, fikirlərini yaşadan jurnalistika fakültəsi miras qalıb. Elə bir fakültə ki, burada Şirməmməd Hüseynovun yetişdirdiyi jurnalistlər nəsli dərs deyir, öyrədir.





**Elçin Mirzəbəyli:** “O işıq ki azdığın bütün istiqamətlərdən səni özünə doğru çəkəcək. Təbii ki, əgər sən özün bunu istəsən”

**Rəşad Məcid:** “Şirməmməd müəllim “belə yaşamaq mümkündür” nümunəsini göstərən əvəzsiz şəxsiyyət, düzlüyü, ədaləti, prinsipiallığı və xarizmasıyla mətbuatımızın gerçək tarixi siması idi”

**Ustadla bağlı xatirələrini ”Şərq”lə bölüşən Milli Məclisin deputatı, Əməkdar jurnalist Elçin Mirzəbəyli Şirməmməd Hüseynovu qaranlıqdan görünən bir ovuc işığa bənzədib:** ”O işıq ki azdığın bütün istiqamətlərdən səni özünə doğru çəkəcək. Təbii ki, əgər sən özün bunu istəsən! Cəmi 23 ay yaşamış bir dövlətin, onun ideoloji əsaslarının, təməl prinsiplərinin qan yaddaşımıza, genetik kodlarımıza həkk olunmasının, nəsildən-nəslə ötürülməsinin sirrini uzun müddət çözə bilməmişəm. Hələ kiçik yaşlarımdan mavi, qırmızı, yaşıl rənglərin harmoniyası mənə rahatlıq gətirirdi. Rəsm dəftərimdə bu üç rəng həmişə dominantlıq edirdi - təbiət mənzərəsindən başlamış, insan portretinə qədər...

1988-ci ildə, 21 yaşımda, ”Azadlıq” marşını, İstiqlal bayrağımıza xitabən ”Qalx ayağa millət, boğmasınlar səsimizi, Bir bayraq altında birləşdir bizi” sözlərini yazanda da Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, ilk dünyəvi dövlətimizin tarixi, onun dövlət atributları, məfkurəsi haqqında böyüklərimin qorxa-qorxa danışdığı, uşaqlıq xatirələrimin toranlığından boylanan bir neçə kəlməlik tarixçədən başqa heç nə bilmirdim.

Hətta düşündüyümdə belə içimi saran, qanımı oynadan Cümhuriyyət sevdasının səbəbini anlaya bilmirdim... Şirməmməd Hüseynovu tanıyanadək.

Şirməmməd Hüseynov Cümhuriyyətlə aramızdakı canlı bağlardan biri idi... Tanrı xalqımızı çox sevdiyi üçün onu 94 il yaşatdı. Tanrı Şirməmməd Hüseynovu çox sevdiyi üçün ona Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini görməyi nəsib etdi...

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin, işıqlı ideyalarının daşıyıcısı kimi şərəfli bir missiyanın canlı əfsanəsini - Şirməmməd Hüseynovu daha yaxından Mirşahin Ağayevin ”Milli Metr” layihəsindən tanımışam və həmin proqramın ”Şirməmməd Hüseynov” buraxılışı bugünədək kompüterimin yaddaşındadı. Hər dəfə Cümhuriyyət dərsi almaq istəyəndə təkrar izləyirəm. Məni yaxından tanıyanlar Şirməmməd müəllimin çıxışlarını telefonumun yaddaşına köçürdüyümü yaxşı bilirlər. Onun hər kəlməsini necə heyranlıqla, nəfəs almadan, göz qırpmadan dinlədiyimi də həmçinin...

Onu hər dəfə görəndə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini seçmədiyimə görə özümü lənətləyirdim. Amma sonradan anladım ki, Şirməmməd Hüseynovun tələbəsi olmaq heç də önəmli deyil... Önəmli olan Böyük Ustadı öz müəllimin hesab etmək, daşıdığı dəyərləri düşüncənə, atdığın hər addıma daşımaq, onun işıqlı zəkasından doğan ideyaların tələbəsi, müridi olmaqdır.

Mənim üçün Şirməmməd Hüseynov, böyük Mövlananın sözləri ilə desək, olduğun kimi görünməyin, göründüyü kimi olmağın az-az rast gəlinən, bu forma və məzmunun vəhdəti ilə simvolizə olunan nümunələrindən biridir!

Mənim üçün Şirməmməd Hüseynov Azərbaycan Xalq Cümhuriyyətinin işıqlı ideyalarını, İstiqlal məfkurəsini, milli zadəgan əxlaqını öz işıqlı zəkasında daşıyaraq istibdad dönəminin dolanbaclarından keçirən, bir müəllim kimi səbirlə, təmkinlə, inadla ilk cümhuriyyətimizin şərəfli mirasının dərk və qəbul olunmasına çalışan və son nəticədə bunu bacaran böyük azərbaycanlıdır. Ruhu şad olsun, Ustadımızın!”

**Azərbaycan Mətbuat Şurasının sədri, ”525-ci qəzet”in baş redaktoru Rəşad Məcid isə bizimlə söhbətində qeyd edib ki, hər zaman yaddaşımızda canlı əfsanə kimi yaşayan professor Şirməmməd Hüseynovun həyat yolu əsl örnəkdir.**

O, dəyərlərə dəyişməz sadiqliyi, gördüyü işə sonsuz inamı, yorulmazlığı, əzmkarlığı, təmizliyi, saflığı, nikbinliyi, gözütoxluğu, müdrikliyi, ləyaqəti, mülayimliyi və hökmü ilə hamımıza ”Belə yaşamaq mümkündür” nümunəsini göstərən əvəzsiz şəxsiyyət, düzlüyü, ədaləti, prinsipiallığı və xarizmasıyla mətbuatımızın gerçək tarixi siması idi.

*MŞ sədrinin sözlərinə görə, yüz ilin Ustadının ömrü yalnız yaşadığı dövrə aid deyil, bu ömür həm də gələcək nəsillərin düşüncələrinə çıraq tutan mükəmməl bir yol xəritəsidir:* ”Şirməmməd Hüseynov elə bir irs qoyub gedib ki, bu, hər alimə nəsib olan səadət deyil. Onun ən böyük sərvəti araşdırmaları, tələbələri və yetirmələridir. Jurnalistlərin əvəzsiz müəllimi Şirməmməd Hüseynov həm də Azərbaycan Xalq Cümhuriyyəti tarixinin ən nüfuzlu tədqiqatçısı idi. Ötən əsrin 80-ci illərində - Bakı Dövlət Universitetinin keçmiş Kommunist küçəsində yerləşən korpusunda Jurnalistika fakültəsində təhsil aldığım illərdə bəzi müəllimlər bizim üçün əfsanə kimi görünürdü. O müəllimlərin hamısı mənim həyatımda böyük rol oynayıblar və indiyə qədər xatirimdədirlər. Həmin müəllimlərim sırasında professor Şirməmməd Hüseynovun müstəsna yeri var. Xoşbəxtlikdən, o illərdə Şirməmməd müəllim bizə burjua ölkələrinin jurnalistikasından dörd qoşa saat dərs dedi. Mən o mühazirələrə qulaq asa-asa haçansa Şirməmməd müəllim haqqında mütləq yazacağımı özüm üçün yəqinləşdirmişdim. Hətta yazının adı da hazır idi: ”Dörd qoşa saat”. Sonralar, dediyim o yazını yazdım da. Doğrudan da, həmin dərslər jurnalistika haqqında təsəvvürümüzü dəyişdirdi. Şirməmməd müəllim sovet rejiminin ən güclü vaxtlarında sətiraltı mesajlarla jurnalistikanın mahiyyətini bizə izah edirdi. Hələ məşhur yenidənqurmanın başlanğıcında dörd qoşa saat burjua jurnalistikasının mahiyyətini anladan Şirməmməd müəllim həm də bir az ezop diliylə, bir az sətiraltı sözlərlə, bəzən də mimikayla sovet və burjua mətbuatları arasındakı fərqləri bizə çox aydınca başa salmışdı...

Gərək ki, Şirməmməd müəllimin özü ilə ilk dəfə görkəmli türkoloq alim Aydın Məmmədovla birlikdə oturmuşduq. Uzaqdan böyük ehtiram bəslədiyim müəllimimlə birinci dəfə yaxından görüşür, söhbətlərini dinləyirdim. Bu insanların müasir tariximizdə və şəxsən mənim həyatımda böyük rolu var.

Sonralar həyat elə gətirdi ki, Şirməmməd müəllim ”525-ci qəzet”in unudulmaz müəlliflərindən biri oldu. Biz onunla ”525-ci qəzet”in redaksiyasında, BDU-da tez-tez görüşürdük. Onun redaksiyamıza hər gəlişi həm ”525”in, həm də o vaxt Dövlət Tərcümə Mərkəzində yerləşən digər mətbuat orqanlarının əməkdaşları üçün əsl bayrama çevrilirdi. Şirməmməd müəllimin maraqlı söhbətlərindən doymaq olmurdu. Həmin illərdə o, Məhəmməd Əmin Rəsulzadənin, Üzeyir Hacıbəylinin dərc olunmamış əsərlərini ”525-ci qəzet”də silsilə şəkildə nəşr etdirirdi - bu böyük şəxsiyyətləri də ”525”in müəlliflərinə çevirmişdi. Qəzet üçün göndərdiyi yazılarda hər bir sözün üstündə əsərək böyük diqqət göstərir və redaksiyanın kollektivini də səfərbər edirdi - jurnalistikada aldığımız nəzəri dərsi həm də praktikada da ustadımızdan öyrənirdik. Müəllimimizin ”525-ci qəzet”in şənbə saylarında mütəmadi olaraq tariximizi araşdıran yazılarını hamımız səbirsizliklə gözləyirdik. Hər dəfə redaksiyaya müraciət edəndə bilirdik ki, mətbuat tariximizlə bağlı nəsə yeni material gətirəcək, bilinməyən məqamları ortaya qoyacaq. Şirməmməd Hüseynovun zəhmətkeşliyi, fədakarlığı, klassik irsə, milli dəyərlərə münasibəti bizi heyrətləndirirdi və hamımız ondan necə məsuliyyətli olmağı öyrənirdik. Hər xırda söz, hadisə Şirməmməd müəllim üçün əhəmiyyətli idi və hər məsələyə dəqiqliklə yanaşırdı”.

**R.Məcidin sözlərinə görə, Şirməmməd Hüseynovun yolunu bu gün onun tələbələri uğurla davam etdirirlər:** ”Ustadın anadan olmasının 100 illik yubileyi ərəfəsində, bu günlərdə BDU-nun Jurnalistika fakültəsinin Milli mətbuat kafedrasının müəllimi, Şirməmməd Hüseynovun araşdırmaçı yetirməsi Samir Xalidoğlunun rəhbərliyi, fakültənin bir qrup tələbəsinin iştirakı ilə ”Açıq söz” qəzetinin 2-ci sayının transliterasiyası ”525-ci qəzet”in içərisində işıq üzü gördü, qəzetin 3-cü sayının transliterasiyası isə artıq çapa hazırlanır.

Söz düşmüşkən, bu yerdə bir məqamı da qeyd etməyi vacib bilirəm. Bir neçə ildir, ADA Universitetinin böyük dəstəyi ilə, 1918-1920-ci illərdə nəşr olunmuş ”Azərbaycan” qəzetinin tam külliyyatının latın qrafikasıyla 20 clddə nəşri prosesinə start verilib və artıq iyirmicildliyin yarıdan çoxu işıq üzü görüb. Belə bir əhəmiyyətli və xeyirxah təşəbbüs, hesab edirəm ki, həm bu ali təhsil ocağı tərəfindən Azərbaycanın mətbuat tarixinə xüsusi ehtiramın, həm də ustad tədqiqatçı Şirməmməd Hüseynovun başladığı böyük işə nəcib və qədirbilən münasibətin nümunəsidir.

Azərbaycan mətbuat tarixinin öyrənilməsi və təbliği istiqamətində Şirməmməd müəllimin fəaliyyəti təkrarsızdır. Ömrünün ahıl çağında da Şirməmməd müəllim çox enerjili, çalışqan idi. Hətta onun bir müsahibəsində dediyi: ”Mənim əlimdə işim çoxdur, ona görə də ölməyə vaxtım yoxdur” - fikri qardaş Türkiyə alimlərini heyrətləndirmiş və məhz bu fikrinə görə Azərbaycana gəlib onunla tanış olmuşdular”.

**Baş redaktorun fikrincə, Şirməmməd müəllim həm bizdən ötrü, həm də bizdən sonrakı nəsillər üçün diqqətin, məsuliyyətin, dəqiqliyin, gördüyü işə hədsiz sevginin simvoludur:** ”Dəfələrlə olub ki, ya özünün təqdim etdiyi, ya da qəzetdə çıxan başqa materiallarda yalnız onun diqqətini çəkə biləcək, yalnız onun sezəcəyi hansısa rəqəmlərə, faktlara aid qeydlərini, düzəlişlərini dərhal telefonla çatdırıb. Əksəriyyətimizə çox xırda, əhəmiyyətsiz görünə biləcək həmin məqamlara son dərəcə həssas münasibəti əslində ona Ustad adı qazandıran müstəsna cəhət, nadir keyfiyyətdir.

Təxminən on il qabaq, yaşlı nəslin nümayəndələri hələ yeni texnologiyalara müqavimət göstərdiyi bir vaxtda Jurnalistika fakültəsində, Mətbuat tarixi kafedrasında üçümüz - Şirməmməd müəllim, Cahangir müəllim və mən söhbət edirdik. Birdən cib telefonu zəng çaldı. Mən, ilk ehtimal kimi, Cahangir müəllimə baxdım. Qımıldanmadı. Şirməmməd müəllim əlini pencəyinin cibinə atıb telefona cavab verdi. Gülümsədim və zövq aldım. Şirməmməd müəllimin yaşıdları arasında mobil telefonla ən tez dostlaşanlardan biri olduğunu biləndə heyrətlənib sevinmişdim.

Hərdən belə epizodları dostlara danışır, Şirməmməd müəllimin bizim üçün örnək olmalı bir çox keyfiyyətlərindən söz açıram. O, bizim üçün bir nümunə, gerçək əfsanə, həm də gözümüzün qarşısında olan canlı tarix idi!

Şirməmməd müəllimsiz həyatımızda dərin bir boşluq yaransa da, Ustadımızın nurlu xatirəsi daima bizimlədir. Bir əsri tamamlayan böyük Ustadımızın nurlu xatirəsi qarşısında ehtiramın və minnətdarlığın ifadəsi kimi bu gün də sayğı duruşunda baş əyirəm! Ruhunuz şad olsun, Şirməmməd müəllim!...”

**Şəymən Bayramova**

---

# Sülh danışıqları aktuallığını qoruyur

## Moskva üçtərəfli formatda imzalanan sənədlərin qüvvədə qaldığı mesajını verir



**Moskva Rusiya Federasiyası, Azərbaycan və Ermənistan arasında əldə olunan razılaşmaların yerinə yetirilməsi üçün əlindən gələni edir və bundan sonra da edəcək.**

Bunu Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin jurnalistlərə açıqlamasında bildirib. O, Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında 2020-2023-cü illərdə imzalanmış üçtərəfli razılaşmaların əhəmiyyətini vurğulayıb.

Həmçinin qeyd edib ki, Moskva ardıcıl olaraq Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsinin, sülh müqaviləsinin bağlanmasının, Cənubi Qafqazda bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılmasının tərəfdarı olaraq qalır. Biz həmçinin Azərbaycan-Ermənistan sərhədinin tezliklə delimitasiyası və demarkasiyası, eləcə də Bakı ilə İrəvan arasında əlaqələrin yeni əsasda hərtərəfli inkişafının tərəfdarıyıq. Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında imzalanmış üçtərəfli razılaşmalar məhz bunlara istiqamətlənib. Rusiya bu üçtərəfli sazişlərin həyata keçirilməsi üçün əlindən gələni edir və bundan sonra da edəcək.

**Politoloq İlqar Vəlizadə “Şərq”ə söyləyib ki, rəsmi Moskva bununla Azərbaycan-Ermənistan-Rusiya formatında imzalanan sənədlərin qüvvədə qaldığını demək istəyir:** “Həmin razılıqlar əsasında Rusiya hər iki dövlətlə münasibətlər qura bilər. Amma üçtərəfli və yaxud hansısa tərəfin iştirakı ola biləcək formatlar qüvvədən düşüb. Belə olan halda Rusiyanın iştirakı ilə yalnız kommunikasiyaların açılması ilə bağlı danışıqlar öz aktuallığını qoruyub saxlaya bilər. Vaxtilə delimitasiya və demarkasiya prosesində Rusiya Baş Qərərgah İdarəsinin xəritələrindən istifadə olunub. Düşünmürəm ki, sözügedən açıqlama hansısa konseptual mövqe daşısın”.

**Şahanə Ziyad**

---

# Tramp ilk vaxtlar təmkinli olacaq

## Rusiya-Ukrayna müharibəsinin həlli çox çətin bir münaqişə halına gəlib

**ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp qalib gəldikdən sonra ilk dəfə mətbuat konfransı keçirib. Tramp yanvarın 20-də andiçmə mərasimindən sonra başlayacaq prezidentliyi ilə bağlı planlarını bölüşüb.**

*Politoloq Turan Rzayevin ”Şərq”ə açıqlamasına görə, konfransda diqqət çəkən məqam Ukraynanın Rusiyaya ərazi güzəştə gedib-getməməli olması ilə bağlı suala verdiyi cavabdır:* ”Tramp yalnız Rusiya və Ukrayna prezidentləri ilə görüşdən sonra bu suala cavab verə biləcəyini açıqlayıb. Bununla belə o, ”Rusiyanın nəzarətində olan ərazilərdə bir dənə də olsun, bina yoxdur. İnsanlar ora qayıtmayacaq” deyib.

Rusiya-Ukrayna müharibəsi kifayət qədər uzanır və yorucu hal almağa başlayıb. Xüsusilə Aİ daxilində müharibənin gələcəyinə dair ciddi fikir ayrılıqları var. Lakin populyar yanaşma Trampın müharibəni sonlandırması, ya da bu istiqamətdə nə isə etməsidir. Bununla belə, onun hələlik konkret nə edəcəyi bəlli deyil. İstisna deyil ki, Tramp ilk vaxtlar təmkinli olacaq.

ABŞ və Qərbin Rusiya ilə dialoqu kəsməsi yanlış qərar idi. Bu həm Rusiyanın əl-qolunu açdı, həm də daha da aqressiv etdi. Trampın bu yanlışı düzəldib dialoqa başlaması ümidi artıra bilər. Bununla belə, Rusiya-Ukrayna müharibəsi həlli çox çətin bir münaqişə halına gəlib. Tərəfləri uzlaşdırmaq çox çətindir.

Rusiya faktiki olaraq Ukrayna torpaqlarının 20 faizindən çoxunu işğal edib. Bu ərazilərin bəzilərini qaytara bilər, lakin Krımın qaytarılması istisnadır. Bundan başqa, Moskvanın başqa tələbləri də var. Donbass, Luqanska yüksək muxtariyyətin verilməsi, hətta ilhaqı da gündəmdədir. Yəni Kremlin tələbi ərazi güzəşti hesabına sülhdür.



Ukrayna isə çətin ki, bunu qəbul etsin. Təbii ki, Vaşinqton Kiyevi dəstəyi kəsməklə hədələsə, bu, Ukraynanın fikrini müəyyən mənada dəyişə bilər, lakin Vaşinqtonun bu variantla razı olması sual altındadır. Hərçənd Trampın ”Rusiyanın nəzarətində olan ərazilərdə bir dənə də olsun, bina yoxdur. İnsanlar ora qayıtmayacaq” sözləri də ərazi güzəşti variantının ağlında olduğu düşüncəsi yaradır”.

**Politoloqun sözlərinə görə, ABŞ Ukraynanın Rusiyaya ərazi güzəştə getməsi hesabına sülhə nail ola bilər. Amma bu həm Vaşinqton, həm də beynəlxalq münasibətlər üçün ciddi fəsadlar yaradar:** ”Birincisi, ABŞ illərdir Ukraynaya dəstək olur. Milyonlarla dollar vəsait, hərbi texnika sərf edilib. Ukraynanın Rusiyaya ərazi güzəştə getməsi hesabına əldə ediləcək sülh hər şeydən öncə yardımların boşa getməsi deməkdir.

İkincisi, ABŞ Ukrayna müharibəsi ilə Rusiyanı zəiflətmək, prestijinə zərər vurmaq istəyirdi. Bunu böyük ölçüdə bacardı. Amma bu variantda sülh Kreml üçün qələbə deməkdir və qısa zamanda prestijinin bərpası mənasına gəlir. Digər tərəfdən, Rusiya bunu ABŞ və Qərb üzərində qələbə kimi təqdim edə bilər. Kremlin gələcəkdə digər qonşu ölkələrə qarşı işğalçı fəaliyyətə başlama riski də var.

Ukraynanın Rusiyaya ərazi güzəştə getməsi hesabına əldə ediləcək sülh beynəlxalq münasibətlər sisteminə də zərbə vura bilər. Faktiki olaraq bir ölkə işğal yolu ilə digərinin ərazilərini ilhaq etmiş və bunu rəsmi şəkildə tanıtmış olur. Çinin eyni şəkildə Tayvanı, Serbiyanın Kosovanı, İsrailin Fələstini, hətta Azərbaycanın tarixi nöqteyi-nəzərdən Zəngəzuru ilhaq etməyə əsası formalaşar. Yekunda onu deyək ki, Tramp üçün Ukrayna düyününü açmaq ”Qordi düyünü”nü açmaqdan çətin olacaq”.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



# Dezinformasiya hücumuna qarşı güclər birləşir

## Media savadlılığı zəif və aşağı olanlar bu sahədə bilgilərini artırmağa çalışmalıdır

**"Media Savadlılığı" Həftəsinə start verilib. Media Savadlılığı" Həftəsi Medianın İnkişafı Agentliyinin təşkilatçılığı, aidiyyəti dövlət və özəl qurumların, akademik müəssisələrin, media və vətəndaş cəmiyyəti institutlarının tərəfdaşlığı ilə keçirilir.**

Həftə çərçivəsində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, mediada və sosial şəbəkələrdə media kampaniyalarının icrası, podkastların yayımı, Bakı və regionlarda fərqli hədəf qruplarına yönələn təlimlərin, həmçinin vebinar və mediaturların təşkili, "ASAN Radio"da "Smart Media" layihəsinin icrası, media və kommunikasiya istiqamətini tədris edən akademik heyət üçün TOT proqramlarının keçirilməsi, Bakı şəhəri üzrə ümumi təhsil müəssisələrində media savadlılığı ilə bağlı təlimlərin keçirilməsi, "medialiteracy.media.gov.az" platformasında onlayn kursun istifadəyə verilməsi və ənənəvi "Media Savadlılığı" Konfransının təşkili nəzərdə tutulur. Qeyd edək ki, "Media Savadlılığı" Həftəsi 16-22 dekabr tarixlərini əhatə edəcək. Media savadlılığı, müasir cəmiyyətdə ən fundamental məsələlərdən birinə çevrilib. İnformasiya texnologiyalarının sürətli inkişafı və sosial medianın genişlənməsi fonunda fərdlərin məlumatları doğru şəkildə seçməsi, analiz və şərhetmə bacarıqları daha mühüm əhəmiyyət kəsb etməyə başlayıb. Azərbaycanda media savadlılığının inkişaf etdirilməsi və bu sahədə səmərəli təhsil sisteminin qurulması, cəmiyyətin düzgün məlumat əldəetmə və ictimai proseslərdə fəal iştirakının təmini üçün mühüm prioritet təşkil edir. Bu, təhsil siyasətinin bir hissəsi olmaqla yanaşı, həm də informasiya mühiti ilə əlaqəli sosial, mədəni və siyasi məsuliyyətlərin yerinə yetirilməsi baxımından əsas rol oynayır.

Media savadlılığı fərdlərin məlumatı toplama, qiymətləndirmə və təhliletmə bacarıqlarına sahib olmasıdır. Bu, həmçinin insanların informasiya mənbələrini düzgün seçmək və onların etibarlılığını qiymətləndirmək qabiliyyətini də əhatə edir. Media savadlılığı informasiya cəmiyyətində insanların özlərini səmərəli şəkildə ifadə etməsi və sosial məsələlərdə aktiv iştirakı baxımından vacibdir. Bununla yanaşı, doğru məlumatlar əldə etmək və yanlış məlumatlardan qorunmaq, sosial media və digər rəqəmsal platformaların nəzarət altına alınması da media savadlılığının əsas tələblərindən biridir. Azərbaycanda media savadlılığı sahəsində bir sıra mühüm addımlar atılmaqdadır. 2010-cu illərin əvvəllərindən etibarən informasiya və kommunikasiya texnologiyalarının inkişafı, internetin yayılması və sosial mediadan istifadənin genişlənməsi ölkədə media savadlılığının artırılması ehtiyacını ön plana çıxarıb. Dövlət və özəl sektorda media savadlılığının təbliği məqsədilə müxtəlif proqramlar və təşəbbüslər həyata keçirilməyə başlanıb.

**Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərlinin sözlərinə görə, texnoloji tərəqqinin tamamilə yeni məzmun və formaya malik media mühiti formalaşdırması gündəlik onlayn mənbələrdən əldə etdiyimiz məlumatlara seçici yanaşmağımızı, bu istiqamətdə lazımi bacarıqlara yiyənlənməyimizi zəruri edib:** "Rəqəmsal transformasiya, onlayn informasiya resurslarının inkişafı, sosial media platformalarının çoxalması yaşadığımız dövrdə informasiya axınını sürətləndirir. Analitik mərkəzlər qeyd edirlər ki, indi hər gün dünyada təsəvvür edilməz səviyyədə, təqribən 2,5 kvintilyon bayt həcmində məlumat yaradılır və yayılır. İnsanlar hətta fərdi istəkləri olmasa belə, hər gün yüzlərlə informasiyanı eşidir, görür və dinləyirlər. Həmçinin cəmiyyət üzvləri özləri də çox vaxt xəbər istehsalçısı və ya xəbər mənbəyi rolunda çıxış edirlər. İndi hər bir kəs ya xəbər alıcısı, ya da xəbər istehsalçısıdır. Yəni xəbər, məlumat emalı günümüzün ayrılmaz bir parçasıdır".

**Media eksperti təəssüflə qeyd edib ki, gündəlik xəbər dövriyyəsi təkcə etibarlı, düzgün məlumatlardan ibarət deyil. "Yanlış xəbər", "saxta xəbər", "dezinformasiya" da xəbər dövriyyəsində böyük paya malikdir:** "Analitik mərkəzlər qeyd edirlər ki, "saxta xəbər"in qlobal informasiya dövriyyəsində çəkisi 45-80 faiz aralığında dəyişir və dünya üçün ən aktual problemlərdən birinə çevrilir. "Saxta xəbər" insanları çaşdırır, səhv qərarlar verməsini, yanlış addımlar atmasını şərtləndirir. Bu baxımdan "saxta xəbər"i, "dezinformasiya"nı "dünya üçün yeni fəlakət" adlandırırlar. Bu cür xəbər bolluğunda düzgün olanı seçmək, informasiya etibarlığını müəyyənləşdirmək üçün insanların müəyyən bacarıqlara malik olması zərurəti yaranır. İnsanlar doğru xəbəri saxta xəbərdən ayırd edə bilməli, yalan xəbərin təsirinə düşməkdən yayınmağı bacarmalıdırlar. Yaxud özləri xəbər mənbəyi rolunda çıxış edərkən, obyektiv davranmağı bacarmalıdırlar. Bir sözlə, insanlar xəbər istehsalı, emalı və istehlakı barədə ən azı ümumi bilgilərə malik olmalıdırlar. Bütün bu elementlərin hamısı "media savadlılığı" proqramında ifadə olunur".

M.Ələsgərlinin sözlərinə görə, 2022-ci ildən qüvvəyə minmiş "Media haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə media savadlılığının artırılmasını zəruri tələb kimi irəli sürür. Qanunun 10-cu maddəsi ölkə vətəndaşlarının media savadlılığının artırılması yönündə öhdəlikləri müəyyən edir. Buna uyğun olaraq, müxtəlif proqramlar icra olunur, tədbirlər gerçəkləşdirilir. Əlamətdar haldır ki, Medianın İnkişafı Agentliyi media savadlılığının artırılması yönündə işlərin səmərəliliyini təmin etmək üçün xüsusi proqram və internet informasiya resursu hazırlayıb. 2023-cü ildə Agentlik tərəfindən "Medialiteracy.media.gov.az" portalı yaradılaraq istifadəyə verilib. Bu portal media savadlılığı istiqamətində məlumat almaq istəyənlər üçün mühüm töhfəyə çevrilib. Medianın İnkişafı Agentliyi paralel olaraq "Media Savadlılığı" Həftəsi qismində kampaniyalar təşkil edir. Agentliyin media savadlılığının artırılması üzrə proqramları bu cür sistemli şəkildə təşkil etməsi vətəndaşların mövzuya marağını artırır. Fikrimcə, bu cür proqramların və kampaniyaların təşkil olunması Azərbaycanda media savadlılığının inkişaf etdirilməsini stimullaşdırır".

**Siyasi şərhçi Azər Həsrət də "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan kimi hər tərəfdən dezinformasiya hücumuna məruz qalan ölkədə media savadlılığı həftəsinin keçirilməsi təqdirəlayiqdir. İnsanların bu istiqamətdə bilgiləndirilməsinin vacib olduğunu vurğulayan ekspert qeyd edib ki, media savadlılığı bütün kommunikasiya formalarından və texnologiyalarından istifadə etməklə səmərəli şəkildə media məlumatlarının axtarılması, təhlil edilməsi, tənqidi qiymətləndirilməsi, eləcə də müxtəlif məlumatların paylaşılması bacarıqlarından ibarətdir:** "Media savadlılığı cəmiyyətin, dövlətlərin, bəşəriyyətin yanlış yola sürüklənməsinin qarşısını almaq üçün lazımdır. İndi elə bir dövrdə yaşayırıq ki, hər kəs media vasitəsilə özünü ifadə edə bilir. Bundan sui-istifadə edənlərin sayı milyonlarladır. Kimisi özünün xırda məqsədləri, kimisi də bəşəriyyəti qarşı-qarşıya qoymaq üçün mediadan sui-istifadə edir. Media savadlılığı hər kəsin mediadan doğru və düzgün istifadə edə bilməsini təmin etmək üçün qaydaların öyrənilməsi və mənimsənilməsidir. İnsanlar öz məsuliyyətini dərk etməli, mediada yayılan məlumatları qiymətləndirməyi bacarmalıdır. Hansı məlumat doğrudur, yalandır, nə məqsədlə yayılır, bunun mənbəyi necədir, nə dərəcədə mötəbərdir və sair bilməlidir. Ona görə də media məlumatlarının qiymətləndirilməsi media savadlılığının əsas məqsədidir".

Saxta informasiyanı müəyyənləşdirə bilmək üçün hər şeydən əvvəl şübhəçi yanaşmanın sərgilənməli olduğunu deyən mütəxəssisin sözlərinə görə, qarşımıza bir informasiya çıxırsa, əvvəl o informasiyanı kim, yaxud hansı qurumun yaydığına baxmaq lazımdır: "Media savadlılığı əslinə qalanda hər bir fərdin və ümumilikdə cəmiyyətin mediadan uyğun və düzgün şəkildə yararlanmasına əlavə dəstək hesab edilə bilər. Yəni insanların bir kəsimi, əlbəttə ki, media ilə bağlı yetərincə bilgilidir, savadlıdır, onların elə də problemləri yaranmır. Amma dediyim kimi, sahəyə dəxli olmayan, özəlliklə də mediadan uzaq olan adamların əksəriyyətinin media ilə bağlı ciddi problemləri olur. Media savadlılığının gərəkli səviyyədə olması isə bu məsələlərin önünü kəsməyə yardımçı olur. Yəni media savadlılığı bu baxımdan, məncə, ciddi şəkildə dəyərləndirilməlidir və hər kəs əli çatdığı qədər media savadlılığı məsələlərinə töhfə verməlidir. Birincisi, media savadlılığı sahəsində peşəkarlar bunun daha geniş yayılması təbliğində öz enerjisini sərf etməli, yardımçı olmalıdır. İkincisi isə media savadlılığı zəif və aşağı olanlar isə bu sahədə bilgilərini artırmağa çalışmalıdır və belə bir şəraitdə ortaya bir mənzərə çıxır. Yəni məlum və məşhur deyimdə olduğu kimi, bilənlər bilməyənlərə anlatsın. Mənə elə gəlir ki, bilənlər bilməyənlərə nə qədər çox anlatsa, bu məsələdə problemin çözümünə bir o qədər tez yaxınlaşacağıq".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Suriyada hər şey bitdi demək çətindir

## Bir çox ölkələr parçalanma ehtimalına qarşı hazırlıqlıdır və yaxud bu yöndə addımlar atır

**Suriyada başlayan proseslər Yaxın Şərqdə baş verəcək prosesləri bir qədər də alovlandıracaq. Artıq bəzi ərəb ölkələri onların ərazisində də çevrilişlər olma ehtimalını nəzərdən keçirir və bu yöndə addımlar atır.**



Əlcəzairlə Fransa arasında artıq diplomatik toqquşma baş verib. Əlcəzair hökuməti Fransanı ölkəni qarışdırmaqda, terror qruplarını maliyyələşdirməkdə ittiham edir. Proseslər onu göstərir ki, digər ərəb ölkələri də analoji halla üzləşəcək.

**Bu barədə "Şərq"ə danışan siyasi şərhçi Səxavət Məmmədin sözlərinə görə, Suriya ilə bağlı yekun qərarın verildiyini demək mümkün deyil. Onun sözlərinə görə, bir çox ölkələr Suriyanın vahidliyinin tərəfdarı olsa da, hətta bu bəyanatı verən ölkələr belə parçalanma ehtimalına qarşı hazırlıqlıdır və yaxud bu yöndə addımlar atır:** "HƏMAS-la toqquşmadan sonra Livan "Hizbullah"ı ilə müharibəyə girən İsrail artıq Suriyadakı qarışıqlıqdan, yiyəsizlikdən istifadə edərək Suriya ərazisini vurmaqla yanaşı, müəyyən əraziləri də işğal edir. Belə ki, artıq İsrail müdafiə naziri işğal etdikləri ərazilərə yerləşmək ilə bağlı orduya əmr verdiyini açıqlayıb. İsrail bu addımla ən çox yoxluq çəkdiyi su problemini müəyyən mənada həll etmiş olur. İsrail üçün ən uyğun variant Suriyanın parçalanmasıdır. Çünki belə bir parçalanma olacağı təqdirdə ərazisini de-yure olaraq da genişləndirə biləcək. Ona görə də İsrail kürd qruplarına ciddi dəstək verir. ABŞ isə dildə Suriyanın bütövlüyünü istədiyini bəyan etsə də, İsrailin atdığı addımlara göz yummaqla mövqeyini ortaya qoymuş olur. Suriyanın parçalanmasını istəməyən ölkələr arasında Türkiyə, İran, İraqı deyə bilərik. Çünki kürd dövlətinin yaranması mütləq şəkildə bu üç ölkəyə təsirsiz ötüşməyəcək. Türkiyənin B variantı olaraq türkmənləri dəstəkləmək və parçalanma fonunda türkmənlərin dövlət qurması yönündədir. Məsələ ondadır ki, bunun özü belə Türkiyəni təhlükədən qorumuş olmur. Zamanında şiə faktoruna qarşı demoqrafik yerdəyişmələr Türkiyənin indiki məqamda başağrısına çevrilə bilər. Suriya prosesindən kənarda qalsa da, bu prosesdə mütləq şəkildə İranın müdaxilə edəcəyini görəcəyik. Çünki bu məsələ İranın özünün belə parçalanmasına gətirib çıxara bilər".

Rusiyaya gəldikdə isə S.Məmməd deyib ki, ruslar Suriyadakı bazaları Liviyaya köçürməklə məşğuldur. Bu, o anlama gəlir ki, Suriyadakı dalğa Liviya ilə yanaşı Afrikanı da vuracaq: "Rusiya Afrikada proseslərə hazırlıqlı olmaq istəyir. "Heyət Təhrir əş-Şam" (HTŞ) lideri əl-Colani İrandan fərqli olaraq Rusiya ilə əməkdaşlıq edəcəklərinin mesajlarını verir. Düşünürəm ki, əl-Colani istəsə də, istəməsə də, gələcəkdə İranla əməkdaşlığa getməyə məcbur olacaq.

Rusiyanın həm fiziki baxımdan, həm də strateji baxımdan Suriyadakı proseslərə qoşulmağa imkanları yoxdur. Ruslar ona görə də üzüsulu şəkildə Suriyadan çıxıb əməkdaşlıq edəcək. Dünyada nə baş verir versin, Rusiyanı Ukrayna hədəfindən yayındırmır. Görünür ki, Rusiya qarşısına qoyduğu məqsədə çatmaq üçün bəzi bölgələrdən çəkilmələrə gedəcək. Bu, onun rəqibləri üçün göydəndüşmədir. Ona görə də gedə biləcəkləri qədər getməyə çalışacaqlar.

Müharibə başlayandan Rusiyanın əsas strateji hədəfinin Odessa olduğunu demişəm. Rusiya bu hədəfə çıxa biləcək-bilməyəcək, bunu yaxın gələcəkdə görəcəyik. Bundan əlavə, Rusiya üçün Belarusun təhlükəsizliyi və Cənubi Qafqaz əsas ön plandadır. Belarusa nüvə başlıqlarının verilməsi isə Rusiyanın hansı addımlar ata biləcəyini ortaya qoyur. Rusiya NATO təhdidinə qarşı Suvalki dəhlizini hədəf ala bilər. Suvalki NATO üçün son dərəcə əhəmiyyətli bir dəhliz sayılır. Belarusun nüvə başlıqları ilə silahlandırılmsı bu gün üçün yox, məhz bu cür əməliyyatlar üçün nəzərdə tutula bilər".

**Siyasi şərhçi qeyd edib ki, dünyada baş verən proseslər açıq şəkildə onu göstərdi ki, BMT tam yararsız bir təşkilata çevrilib. Onun Təhlükəsizlik Şurası isə dünya üçün təhlükədir:** "Dünyada baş verən bütün münaqişələrin altından birbaşa və yaxud dolayısı ilə Təhlükəsizlik Şurasının üzvləri çıxır. Ona görə də yenilənən dünyada BMT də, elə onun Təhlükəsizlik Şurası da yenilənməli olacaq. Böyük ölkələr onsuz da köhnə qanunlarla idarə olunmurdu, artıq regional güclər və kiçik dövlətlər də köhnə qanunlarla hərəkət etmək niyyətində olmadığını ortaya qoyur. Bu şərtlərdə sülhün, nizamın gələcəyini gözləmək məntiqli deyil. Böyük müharibə qaçılmazdır. Azərbaycan da hərbi gücün artırılması yönündə addımlar atır. Dünyada baş verənlərə baxdıqda bunu anlamaq olur".

**Şəymən Bayramova**

**Milli Məclisdə "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və digər qanunlarda dəyişiklik edilməsi barədə layihələrə baxılır.**



# Hərbi xidmətlə bağlı islahatlar genişlənəcək

## Əli Məsimli: "Dəyişikliklər səfərbərlik sisteminin səmərəliliyini artırmaq məqsədinə xidmət edir"

Ölkəmizdə hərbi xidmətlə bağlı qanunvericiliyə dəyişikliklərin edilməsi postmüharibə dövrünün mahiyyət və məntiqindən, eləcə də beynəlxalq təcrübədən irəli gəlir.

**Millət vəkili Əli Məsimli deyib ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna dəyişiklik edilərək əsgərlik yaşı azaldılır. Buna uyğun olaraq bir sıra müvafiq qanunvericilik sənədlərində də dəyişiklilər edilir. Qanunda Azərbaycanda müddətli həqiqi hərbi xidmətə çağırış üçün nəzərdə tutulan yaş həddi 35-dən 30-a endirilməsi ilə bağlı zəruri dəyişikliklər edilir:** "Bu dəyişiklik çox mütərəqqi bir dəyişiklikdir və bu sahədəki islahatların gedişində davamı da ola bilər. Dəyişikliyə əsasən, müddətli həqiqi hərbi xidmətə çağırış 18 yaşından 35 yaşınadək yox, hərbi xidmət keçməmiş 18 yaşından 30 yaşınadək kişi cinsli vətəndaşlara şamil olunacaq. Rəsmi məlumatlara görə, 2020-2024-cü illər ərzində hər il üzrə 30-35 yaşlı çağırışçılar ümumi resursun 0,2-0,3 faizini təşkil edib. Deməli, sözügedən dəyişiklik çağırış resursuna ciddi təsir göstərməyəcək. Digər yandan layihədə müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilərək hərbi qeydiyyatdan çıxarılan vətəndaşların dairəsi müəyyən olunur. Təklif edilir ki, dinc dövrdə fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi olan vətəndaşlar, sağlamlıq vəziyyətinə görə dinc dövrdə həqiqi hərbi xidmətə yararsız sayılmış çağırışçılar müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilərək ehtiyata keçirilsinlər".

**Parlamentari qeyd edib ki, bununla yanaşı təhsili davam etdirmək üçün çağırışa möhlət verilməsi ilə bağlı maddə də yenilənib:** "Bakalavriatda əyani təhsil alan tələbələrə çağırışa möhlət, onların 24 yaşı, magistraturada əyani təhsil alan tələbələrə isə 26 yaşı tam olanadək veriləcək. Burada bir nüansı da qeyd etmək lazımdır ki, sözügedən möhlət məsələsində dövlət proqramları və tələbə mübadiləsinə dair hökumətlərarası təqaüd proqramları çərçivəsində təhsil alan çağırışçılar istisna təşkil edəcək. Sadalanan dəyişikliklər səfərbərlik sisteminin səmərəliliyini artırmaq məqsədininə xidmət edir. Bu, hərbi xidmətlə bağlı islahatların genişləndirilməsinə yol açacaq".

**İsmayıl**





# Rusiyalı generalı rəqibləri də aradan götürə bilər

## Kreml əgər Ukraynadan şübhələnirsə, bu diversiya aktının, həqiqətən də, Ukrayna tərəfindən törədildiyini faktlarla sübuta yetirməlidir

**Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedyev general-leytenant İqor Kirillovun ölümünə görə Ukraynanın hərbi-siyasi rəhbərliyini qisasla hədələyib. O, bu qisasın misilsiz olacağı ilə bağlı xəbərdarlıq edib.**

O bildirib ki, Kiyev rejimi cəbhədəki uğursuzluqlara görə Qərb ağalarına haqq qazandırmaq üçün hər cür səy göstərir. Ukrayna müharibəni və ölümləri uzatmağa çalışır. Kirillova qarşı terror aktı isə aqoniyanın növbəti təsdiqidir. Qeyd edək ki, Rusiya Silahlı Qüvvələrinin radiasiya, kimyəvi və bioloji müdafiə qoşunlarının komandanı, general-leytenant İqor Kirillov Moskvanın Ryazansk prospektindəki yaşayış binasında baş verən partlayış nəticəsində ölüb. Generalın ölümünə səbəb olan partlayıcı binanın girişindəki skuterin içərisinə yerləşdirilib.

**”Müstəqil Mətbuat Mərkəzi” İctimai Birliyinin sədri, politoloq Elçin Xalidbəyli ”Şərq”ə bildirib ki, savaş vəziyyətində olan iki dövlətin arasında analoji diversiya təxribat əməliyyatlarının olması gözlənilməz deyil:** ”Ancaq bu hadisənin birmənalı şəkildə Ukrayna kəşfiyyatı tərəfindən törədildiyi də sübut olunmayıb. Yəni Kremlin əgər Ukraynaya qarşı iddiası varsa, bu diversiya aktının, həqiqətən də, rəsmi Kiyev tərəfindən törədildiyini faktlarla sübuta yetirməlidir. Lakin Rusiya tərəfindən hələlik yalnız təxminlər üzərindən müəyyən təhdid açıqlamaları verilir. İstənilən halda savaşın uzadılmasına yönəlik belə addımların atılması həmişə gözlənilən xarakter daşıyır. Sözegedən hadisə Rusiyanın hərbi dairələrində olan qarşıdurmanın nəticəsi ola bilər. Yəni hədəfə çıxarılan general kimlərinsə rəqibi ola bilər ki, onu bu cür aradan götürməklə bütün şübhələri Ukrayna kəşfiyyatının üzərinə atmaq məqsədi daşıyar. Bunların hər biri ehtimaldır, reallığı isə faktlarla ortaya çıxarmaqla müəyyənləşdirmək mümkündür”.

**Ekspert qeyd edib ki, Dmitri Medvedyevin Ukraynanı hədələməsinin mənası yoxdur:** ”Çünki Ukrayna bir neçə ildir ki, Rusiyanın işğalına məruz qalıb, şəhərləri dağıdılıb və əraziləri işğal olunub. Bundan sonra Rusiyanın Ukraynadan hansı intiqamı alacağı müəmmalı xarakter daşıyır. İndiki stuasiyada Kremlin hərbi qarşıdurmanı daha da gərginləşdirəcək addımlar atması inandırıcı görünmür. Moskva üçün önəmli məqamlardan biri müəyyən zamanın qazanılmasıdır. Yanvarın 20-də Tramp administrasiyası öz səlahiyyətlərinin icrasına başlayarkən Ukrayna savaşının dayandırılacağına ümid bəsləyir. Həmçinin Qərbdən verilən mesajlardan və Tramp administrasiyası təmsilçilərinin açıqlamalarından bəlli olur ki, Ukraynanın ərazilərinin itirilməsi hesabına Rusiya ilə sülh anlaşması nəzərdə tutulur. Bu isə Kremli olduqca ümidləndirib. Rusiya səbirsizliklə Donald Trampın səlahiyyətlərinin icrasına başlamasını gözləyir”.

**Şahanə Ziyad**

# Türkiyəni günahlandırmaq işin ən rahat tərəfidir

## Rus politoloqlarının irəli sürdüyü mülahizələr reallığı əks etdirmir



**ABŞ Türkiyə və müttəfiqlərinin sərhəd yaxınlığında mövcudluğunu artırdığı üçün Suriyada hərbi əməliyyat planlaşdıra biləcəyindən narahatlığını ifadə edib.**

Bu barədə ”Voll Strit Jurnal” mənbələrə istinadən məlumat yayıb. ”Türkiyə və silahlılar Suriya ilə sərhəddə qüvvələr toplayır və Vaşinqton Ankaranın suriyalı kürdlərin əlində olan ərazilərə genişmiqyaslı hücuma hazırlaşa biləcəyi barədə həyəcan təbili çalır. Toplanan qüvvələrə Türkiyə ilə şimal sərhədində yerləşən Ayn əl-Ərəb (Kobani) şəhəri yaxınlığında çoxlu sayda cəmləşmiş silahlılar, Türkiyə xüsusi təyinatlıları və artilleriya daxildir”, - məlumatda deyilib.

Qeyd edək ki, Türkiyənin xarici işlər naziri Hakan Fidan Səudiyyə Ərəbistanının ”Al Hadath” televiziyasına müsahibəsində deyib ki, Ankara Suriyada müxalifətin Bəşər Əsəd administrasiyasının devrilməsi ilə nəticələnən əməliyyatında iştirak etməyib. Nazirin sözlərinə görə, Türkiyə bu prosesin bir parçası olmayıb.

Bundan əlavə, Fidan bildirib ki, Suriyanın keçmiş Prezidenti Bəşər Əsəd Ankaranın üçüncü ölkələrin vasitəçiliyi ilə dəfələrlə cəhd etməsinə baxmayaraq, Türkiyə tərəfi ilə görüşdən imtina edib.

**Bahçeşehir Universiteti Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, terror və təhlükəsizlik üzrə ekspert Abdullah Ağar ”Şərq”ə bildirib ki, Türkiyənin bu münasibətlərdə istədikləri ortadadır:** ”Suriyada baş verənlərin təsiri İranda özünü çox mənfi göstərir. Rusiyada isə bir qrup siyasətçilər və ruslara yaxın olduğu iddia edilənlər Bəşər Əsəd rejiminin devrilməsində Türkiyəni səbəbkar görür. Əslində, Türkiyənin dəyişən vəziyyətə doğrudan təsiri yoxdur. Sadəcə olaraq Qəzza müharibəsinin başlaması fonunda Suriyada ortaya çıxan bir güc boşluğu var idi. Bunu isə HTŞ doldurdu. Amma məsələyə HTŞ ilə bərabər hərəkət edən digər qruplar və münaqişəyə daxil olan başqa klanların da olduğunu nəzərə alaraq baxmaq lazımdır. Digər tərəfdən, İran çox böyük bir qırılma yaşayıb. Buna görə də onun Qəzzaya uzanan xətdə, xüsusilə də Liviya və Suriyada qırılma yaşadığı üçün Türkiyəni günahlandırması normaldır. Yəni bu, öz daxilində sadəcə bir iddiadır. Amma ümumi görüntüyə daha düzgün baxmaq lazımdır”.

**Ekspert deyib ki, olanların təməl səbəbi İranın mübarizədən məğlub olaraq ayrılmasıdır:** ”Eyni zamanda rus politoloqlarının irəli sürdüyü mülahizələr reallığı əks etdirmir. Amma bu fikirlər üzərindən bir mesaj verilməsi mümkündür. Çünki Ukrayna və Qəzzadakı münaqişə rusların bu coğrafiyadakı mövcudluğuna çox güclü bir şəkildə təsir etdi. Yaranan güc boşluğu isə təbii olaraq Rusiyanın buradakı geopolitik mənfəətləri üzərində təzyiq yaratdı. Türkiyəni günahlandırmaq isə işin ən asan tərəfidir”.

**Aynur Babazadə**

# Qeyri-yaşayış obyektlərinə çıxarışlar verilməlidir

## Bu, əmlak sahiblərinin bizneslərinin genişləndirilməsinə səbəb olacaq

**Azərbaycan Prezidentinin ”Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanına uyğun olaraq qeyri-yaşayış obyektlərinin istismarına icazələrin verilməsinin asanlaşdırılması tədbirləri icra edilir.**

Bunu ”APA-Economics”ə açıqlamasında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini Rüstəm Şahbazov deyib.

”Biz bu Fərmana qeyri-yaşayış sahələrinin amnistiyası kimi baxırıq. Tutaq ki, kənd təsərrüfatı təyinatlı torpaqda qeyri-yaşayış obyekti tikilib, bu halda kateqoriya dəyişməsi üçün Fövqəladə Hallar Nazirliyi (FHN), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və digər aidiyyəti qurumların müvafiq razılıqları varsa, hüquqların qeydiyyatı sahəsində bizə müraciət edilir və biz həmin vəsatəti kateqoriya dəyişilməsi üçün Nazirlər Kabinetinə təqdim edirik”, - deyə R.Şahbazov bildirib.

O qeyd edib ki, bu kimi müraciətlər ilkin olaraq FHN-ə təqdim olunur: ”Bizdə olan məlumata görə, 25 minə yaxın hüquq sahibi müraciət edib. FHN-in təqribən 12-13 minə yaxın müraciəti əsasında Dövlət Xidməti tərəfindən yerquruluşu planları hazırlanaraq istismarın sənədləşdirilməsi üçün sistemə daxil edilib. Müvafiq icra hakimiyyəti orqanından və Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bizə daxil olan sənədlər əsasında təqribən 1500-ə yaxın mülkiyyət hüququ tanınıb. Proses davam edir. Mürəkkəb məsələlər çoxdur. Əksər hallarda bu tikililər mühafizə əraziləri, mühəndis-kommunikasiya qurğularının əhatə dairəsi və ümumi istifadədə olan ərazilərə düşdüyünə görə, çoxlu təhlillər aparılır”.



**Daşınmaz əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev ”Şərq”ə bildirib ki, qeyri-yaşayış, yaşayış olmayan tikililərdir:** ”Qeyri-yaşayış sahələrinə obyektlər, zavodlar, fabriklər, müəssisələr aiddir. Yəni yaşayış üçün nəzərdə tutulmayan tikililərdir. Təbii ki, bunlara fermalar, anbarlar tam daxil deyil. Hazırda ölkə ərazisində 10 minlərlə çıxarışı olmayan qeyri-yaşayış obyekti var. Ötən il ölkə başçısı tapşırıq verdi ki, həmin çıxarışı olmayan qeyri-yaşayış obyektləri çıxarışla təmin olunsun. Məsələnin həlli isə Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Şöbəsinin nəzarətinə verildi. Bundan sonra da çıxarışı olmayan qeyri-yaşayış sahələrinin sahibləri sənədlərini həmin quruma yönəldərək oranın vasitəsilə sənədlərini toplaya və çıxarışlarını ala bildi. Amma qeyri-yaşayış obyektlərində də yaşayış evləri kimi çox sayda problem var. Burada torpaq sahələrinin təyinatının fərqli olması, yaxud tikilinin avtomobil yolunun tam kənarında tikilməsi və tikinti normativlərinə uyğun aparılmaması kimi problemlər mövcuddur. Hazırda proses gedir və növbəti ilin birinci yarısına qədər bu proses bitməlidir. Təbii ki, qeyri-yaşayış obyektləri də yaşayış evləri kimi önəmlidir. Bunlara çıxarışların verilməsi əmlak sahiblərinin bizneslərinin genişləndirilməsinə səbəb ola bilər. Yəni vətəndaşlar həmin qeyri-yaşayış obyektlərini banka girov qoyaraq hansısa kreditlər əldə edə və yaxud bu əmlaklar kirayə verilməsi müqavilələri rəsmi notarial qaydada bağlanıla bilir. Ümumiyyətlə, qeyri-yaşayış obyektlərində çıxarışların olmaması həm əmlak sahiblərinə problem yaradır, həm də dövlət bu əmlakların satışından və icarəsindən gəlir götürə bilmir”.

**Fidan Həmişəyeva**

# Çətinliklər var, amma yaxşı olacaq

## Pediatr: “İnsanlar sığorta ilə xəstə qəbul edən həkimlərin yanına getməkdən qorxmamalıdırlar”



**“Gələn ilin ikinci yarısından ambulator müalicə üçün dərman vasitələri ilə təmin edilmə icbari tibbi sığorta paketinə əlavə ediləcək”.**

Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev 2024-cü ilin yekunları ilə bağlı keçirilən mətbuat konfransında deyib.

O qeyd edib ki, ambulator müalicə üçün dərman vasitələrinin təminatına 2025-ci ilin 6 ayı üzrə 40 milyon manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulub.

Zaur Əliyev, həmçinin gələn il icbari tibbi sığorta zərfində nəzərdə tutulan dəyişikliklər barədə də məlumat verib. Onun sözlərinə görə, beyin və boyun anevrizmalarının endovaskulyar üsulla aradan qaldırılması, Endovaskulyar lazer ablasiya (EVLA) intraabdominal venoz şuntlama və arteriovenoz fistulaların ləğvi, baş beyin biopsiyası və kəllə sümüklərinin metal lövhələrin yerləşdirilməsi, sidik ifrazat sistemi ventrikulyar şuntların qoyulması və dəyişdirilməsi, gözün arxa kamerasından implantasiya materiallarının çıxarılması gələn ildən icbari tibbi sığortanın xidmətlər zərfinə əlavə ediləcək.

**Pediatr Vaqif Qarayev ”Şərq”ə açıqlamasında deyib ki, ambulator müalicə dərmanlarının sığorta paketinə daxil edilməsinə çox yaxşı baxır:** ”Hamının arzusu idi ki, tibbi sığorta qəbul olunsun və insanlar az əziyyət çəksinlər. Artıq bu qərar qəbul olunub. İnsanlar sığorta ilə xəstə qəbul edən həkimlərin yanına getməkdən qorxmamalıdırlar. Ümumiyyətlə, dünyanın heç bir ölkəsində, ilk vaxtlar, tibbi sığorta normal relsə düşməyib. Azərbaycanda da bu islahat ilkdir. Çətinliklər var, amma mən müsbət qiymətləndirirəm. Digər tərəfdən, özəl və dövlət xəstəxanası arasında çox fərq var. Özəl xəstəxana özünü dolandıracaq sahibkarlıq subyektidir. Dövlət xəstəxanası isə dövlətin tabeçiliyindədir. Əsas fərq odur ki, ən peşəkar həkimlər özəl xəstəxanada çalışmaq istəyirlər. Çünki orada qazanc daha çox olur. İnsanlarımızın özəldə də, dövlətdə də axtardığı həkimin peşəkarlığıdır. Peşəkar həkim harada çoxdursa, xəstələr də ora gedir”.

**Fidan**

# Metil spirti işbazların qazanc mənbəyidir

## İstehlakçılar normal, əsl spirtin dadını saxta spirtdən ayıra bilmədiklərindən zəhərlənirlər



**Bakıda kişi alkoqoldan zəhərlənərək ölüb. Hadisə Yasamal rayonunda qeydə alınıb. Ordubad rayon sakini, 54 yaşlı Yaşar Kamil oğlu Rzayev alkoqol zəhərlənməsi diaqnozu ilə xəstəxanaya yerləşdirilib və orada ölüb.**

*Faktla bağlı araşdırma aparılır.*

*Mövzu ilə bağlı fikirlərini bölüşən qida eksperti Fərid Səfərov "Şərq”ə söyləyib ki, saxta alkaqollu içki istehsalında metil spirt işbazlar tərəfindən tez-tez istifadə olunur:*

“Bu maddəni əldə etdikdən sonra normal spirtə qatırlar. İstehlakçılar isə normal, əsl spirtin dadını saxta spirtdən ayıra bilmədiklərindən zəhərlənirlər. Bu, istənilən növ içkiyə aiddir. Belə hallardan qorunmaq üçün maarifləmək, içkinin insan orqanizmi üçün nə qədər təhlükəli və ziyanlı olduğunu dərk etmək lazımdır. Alkoqolun fiziki və zehni sağlamlığınıza, eləcə də gündəlik həyatınıza və şəxsi münasibətlərinizə bir çox mənfi təsiri var.

**Ekspert alkoqolun mənfi xüsusiyyətlərini sadalayıb:**

Depressiya, psixoloji problemlər, cinsi disfunksiya, sinir iltihabı, alkoqolun mədəyə zərərli təsirləri arasında ezofagit və reflü xəstəliyi var, qaraciyər funksiyasının pozulması, yağlanma, hormonal pozğunluqlar, ürək xəstəlikləri, xərçəng, yoluxucu xəstəliklər”.

Fərid Səfərov qeyd edir ki, alkoqoldan imtina etsəniz, qısa müddətdə bədəninizdəki müsbət təsirləri görməyə başlayacaqsınız: “Yuxu keyfiyyətiniz yüksələcək, dərinizin sağlamlığı yaxşılaşacaq, daha gənc və canlı dəriyə sahib olacaqsınız. Digər tərəfdən, alkoqolun səbəb olduğu çəki artımı və qan şəkəri balanssızlığı aradan qalxacaq. Həmçinin infarkt riski azalır və ürək sağlamlığınız qorunur, əhval və düşüncə yaxşılaşır. Yəni balanslı və müsbət əhvali-ruhiyyə yaşayacaqsınız və sosial münasibətləriniz yaxşılaşacaq. Eyni zamanda qaraciyərinizin sağlamlığı artacaq, immunitet sisteminiz güclənəcək, cinsi sağlamlığınız yaxşılaşacaq.

Seçimlər edərək sağlam qidalanın, alkoqollu içkilərdən uzaq durun, sağlamlığınız və canınız əldən getməsin”.

**Fidan Həmişəyeva**

Elan

Əhmədov Cavad Məmmədşah oğlunun (AA 3290095) adına Belarus MTZ 80 markalı TŞ 011664 saylı qeydiyyat şəhadətnaməsi 17 T-102 dövlət qeydiyyat nişanlı 27.09.2002-ci il tarixli traktorun sənədləri itdiyi üçün etibarsız sayılır.

“Azərbaycan Demokratiya və Rifah Hərəkatı” İctimai Birliyinə məxsus qeydiyyat şəhadətnaməsi və nizamnaməsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi: “Şərq Media Qrup” MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

“Şərq Media Qrup” MMC-yə daxildir:
“Şərq” qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2964



## Təyyarələrdə itən baqaj dövrü başa çatır

**Türk Hava Yolları baqaj izləmə sistemi üçün ”Apple” ilə əməkdaşlıq edib. Tətbiqlə itirilmiş baqaj yer məlumatları vasitəsilə aşkar ediləcək.**

”Şərq” xəbər verir ki, Türk Hava Yolları (THY) ”Apple” ilə yeni əməkdaşlıq müqaviləsi imzalayıb.

Müqavilə çərçivəsində baqaj izləmə sistemi hazırlanacaq. Sərnişinlər ”AirTag” və ya ”Find My” dəstəklənən cihazları olan və nasazlıqla üzləşmiş baqajlarının yer məlumatlarını komandalarla paylaşa biləcəklər.

Tətbiqlə itirilmiş baqaj dövrünün başa çatacağı gözlənilir. Məkan məlumatı üçün ”Find My” proqramım vasitəsilə Məkan Paylaşımı linki yaradılacaq və https://lnkd.in/dhze-advh linki vasitəsilə paylaşıla biləcək.

Paylaşılan məkan məlumatı yeddi gündən sonra avtomatik olaraq bitəcək. Yer məlumatı da sərnişin tərəfindən söndürülə bilər.

**Turan**

## Ronaldo prezidentliyə namizədliyini irəli sürüb




**Ronaldo Nazario Braziliya Futbol Federasiyasının prezidenti vəzifəsinə namizədliyini irəli sürüb.**

Apasport.az xəbər verir ki, Braziliyanın futbol əfsanəsi bu barədə sosial media hesabında paylaşım edib: ”Mən Braziliyanın hər bir küncünə səyahət edəcəm, ehtiyacı olan hər kəsi dinləyəcəm. İdmanın davamlı inkişafı üçün əvvəllər görülməmiş özəl bir investisiya layihəsi təqdim edəcəm”.

*Qeyd edək ki, 48 yaşlı sabiq futbolçu karyerası boyunca ”Barselona”, ”İnter”, ”Real”, ”Milan” kimi klubların formasını geyinib.*

## Batuhan Karacakaya eşqini elan etdi



**“Aşkı Memnu” serialındakı ”Bülent” obrazı ilə tanınan aktyor Batuhan Karacakaya sosial media hesabından etdiyi paylaşımla yeni eşq macərasına başladığını izləyicilərinə açıqlayıb.**

”Şərq” xəbər verir ki, Karacakaya sevgilisi Sinem Akarla çəkdirdiyi fotosunu ürək emojisi qoyaraq izləyiciləri ilə paylaşıb.

Cütlüyün paylaşımı sosial mediada trend mövzusuna çevrilib.

Digər tərəfdən, Batuhan Karacakayanın ”Survivor 2025”-in aktyor heyətində yer alacağı iddia edilir. Məsələ ilə bağlı hələlik heç bir açıqlama verilməyib.

**Turan**

## İctimai yerlərdə siqaret çəkmək qadağan edilir

### Siqaret istehlakı Milanda havanın çirklənməsində 7 faiz rol oynayır



**2025-ci il yanvarın 1-dən etibarən Milan şəhərində ictimai yerlərdə siqaret çəkmək qadağan olunacaq.**

Azərtac xəbər verir ki, bu barədə Milan Bələdiyyəsi qərar qəbul edib. Qərar 2050-ci ilədək karbon qazı emissiyalarını yarıya endirmək üçün hazırlanan proqram çərçivəsində şəhərdə havanın çirklənməsinin qarşısını almaq məqsədilə qəbul olunub. Yeni qaydaya əsasən, siqaret və tütün məmulatlarının istehlakına digər insanlarla arasında ən azı 10 metr məsafə olması şərti ilə yalnız müəyyən ayrılmış yerlərdə icazə veriləcək. Qaydaya əməl etməyənləri 40 avrodan 240 avroyadək cərimə gözləyir. Mütəxəssislərin fikrincə, siqaret istehlakı Milanda havanın çirklənməsində 7 faiz rol oynayır.

*Xatırladaq ki, İtaliyanın ikinci böyük şəhəri, eyni zamanda, ölkənin sənaye və maliyyə mərkəzi olan Milanda 2021-ci ildən parklar, stadionlar, avtobus dayanacaqları və qəbiristanlıqlarda siqaret çəkmək qadağan edilmişdi.*





# 100 ildən sonra su altında qalacaq şəhərlər

### Türkiyədən iki bölgə də təhlükə altındadır

**Qlobal istiləşmə və iqlim dəyişikliyinin ən böyük təsirlərindən biri olan dəniz səviyyəsinin qalxması bütün dünyada sahilyanı şəhərləri təhdid edir. Milyonlarla insanın məskunlaşdığı bu şəhərlərin gələcəkdə tamamilə su altında qalma riski var. Mütəxəssislər bildirirlər ki, 100 il ərzində dünyanın bir çox mühüm şəhərləri su altında qala bilər. 100 ildən sonra su altında qalacaq şəhərlərin siyahısını təqdim edirik.**

”Şərq” xəbər verir ki, mütəxəssislərin fikrincə, 100 ildən az müddətdə dünyanın bir çox mühüm şəhərləri ya tamamilə, ya da qismən su altında qalacaq. Bununla belə, şiddətli tufanlar, dağıdıcı küləklər və iqlim dəyişikliyi səbəbindən artan yağışlar sahilyanı ərazilər üçün böyük təhlükə yaradır.

İqlim hesabatları göstərir ki, Tokio, Nyu-York, Mumbay və Banqkok kimi nəhəng metropollarla yanaşı, Türkiyənin iki şəhəri də dəniz səviyyəsinin yüksəlməsi nəticəsində yox olmaq təhlükəsi ilə üzləşən şəhərlər sırasındadır. Ümumilikdə 25 şəhəri su altında qalmaq təhlükəsi var.

*Budur 100 ildən sonra su altında qalacaq şəhərlər;*

**Amsterdam,** Hollandiya
**Venesiya,** İtaliya
**Yeni Orlean,** Amerika Birləşmiş Ştatları
**Kopenhagen,** Danimarka
**Əbu dabi,** Birləşmiş Ərəb Əmirlikləri
**Dubay,** Birləşmiş Ərəb Əmirlikləri
**Lisbon,** Portuqaliya
**Boston,** Amerika Birləşmiş Ştatları
**Sidney,** Avstraliya
**İsgəndəriyyə,** Misir
**Miami,** Amerika Birləşmiş Ştatları

**San Francisko,** ABŞ
**Ho chi minh,** Vyetnam
**Dakka,** Banqladeş
**London,** Birləşmiş Krallıq
**Cakarta,** İndoneziya
**Banqkok,** Tayland
**Kalkuta,** Hindistan
**Osaka,** Yaponiya
**Nyu-York,** Amerika Birləşmiş Ştatları
**Mumbay,** Hindistan
**Tokyo,** Yaponiya
**Vankuver,** Kanada
**İzmir,** Türkiyə
**İstanbul,** Türkiyə**.**







### Səhər yorğun oyanmaq bu xəstəliyin əlaməti ola bilər

# Araşdırmaların nəticəsi məlum olub

**Səhər yorğun oyanmaq müasir dünyada ən çox rast gəlinən problemlərdən biridir. Tıxac, sürətli iş həyatı və sosial media asılılığı kimi faktorlar nəinki yuxsuzluq yaradır, həm də fərdləri psixoloji cəhətdən yorğun hala gətirir. Səhər yorğun oyanmağınızın 9 əsas səbəbi bunlardır:**

Yuxu apnesi yuxu zamanı nəfəsin müvəqqəti dayandığı bir vəziyyətdir. Yuxu apnesi yuxunun keyfiyyətini ciddi şəkildə pozur və səhər saatlarında güclü yorğunluq hisslərinə səbəb olur. Tədqiqatlara görə, yuxu apnesi olan insanlar tez-tez gecə ərzində dəfələrlə oyanırlar və tam istirahət edə bilmirlər. Amerika ”Yuxu Apne Assosiasiyasına” görə, bu vəziyyət gün ərzində həddindən artıq yuxululuq və yorğunluqla nəticələnir. Xoruldama, nəfəs darlığı, səhər baş ağrıları və gecə tərləmələri də yuxu apnesinin ümumi simptomlarıdır.

Anemiya bədənin oksigeni daşımaq üçün kifayət qədər qırmızı qan hüceyrəsi istehsal etməməsidir ki, bu da bədəni daim yorğun edir. ”American Journal of Hematology”nin məlumatına görə, anemiya, yuxu zamanı belə bədənin kifayət qədər oksigen almamasına səbəb olur. Digər simptomlara başgicəllənmə, zəiflik, solğun dəri və nəfəs darlığı daxildir.

Depressiya da yuxu rejiminə təsir edir. Milli Psixi Sağlamlıq İnstitutunun məlumatına görə, depressiyadan əziyyət çəkən insanlar ya çox yatırlar, ya da yuxusuzluqdan əziyyət çəkirlər. Bu pozğunluqlar oyandığınız zaman sizi yorğun hala salır. Depressiya həm də enerji çatışmazlığı, apatiya və daimi yorğunluq hissi ilə əlaqələndirilir. Keyfiyyətsiz yuxu, depressiyanın əksi olaraq səhərlər gümrah oyanmamağın əsas səbəblərindən biridir.

Hipotiroidizm, tiroid bezinin kifayət qədər hormon istehsal etmədiyi bir vəziyyətdir. Bu hormonlar bədənin enerji istehsalını və maddələr mübadiləsi sürətini tənzimləyir. Kanadanın Tiroid Fonduna görə, aşağı tiroid hormon səviyyələri səhərlər həddindən artıq yorğunluq hisslərinə səbəb olur. Bundan əlavə, çəki artımı, quru dəri, saç tökülməsi və depressiya kimi simptomlar hipotiroidizmin əlamətləri arasındadır. Xroniki yorğunluq sindromu davamlı, səbəbi bilinməyən yorğunluq ilə xarakterizə olunan bir vəziyyətdir. Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzləri (CDC) bildirir ki, bu sindrom yuxusuzluq, əzələ ağrıları və konsentrasiyada çətinlik kimi simptomlarla müşayiət olunur.

Qeyri-kafi maye qəbulu yuxu zamanı bədənin susuzlaşmasına səbəb olur. ”Journal of Clinical Endocrinology & Metabolism” jurnalında dərc edilən bir araşdırma, susuz qalan insanların səhərlər yorğunluq və başgicəllənmə hissləri yaşadıqlarını ortaya qoyur. Bədən yuxu zamanı su itirir və bu, adekvat kompensasiya edilmədikdə səhər yorğunluğuna səbəb olur. Aşağı qan şəkəri səhərlər yorğunluq və zəiflik yaradır. Xüsusilə şəkərli diabet xəstələri gecə qan şəkərinin səviyyəsi aşağı düşərsə, yuxudan yorğun və halsızlıq hiss edə bilərlər. ”Diabetes Care” jurnalında dərc edilən bir araşdırma göstərir ki, hipoqlikemiya səhərlər yorğunluq hissini artırır. Digər simptomlara tərləmə, titrəmə və başgicəllənmə daxildir. D vitamini, B12 vitamini və dəmir çatışmazlığı səhərlər yorğunluq hissi yaradır. ”American Journal of Clinical Nutrition”da dərc edilən bir araşdırma, xüsusilə B12 və dəmir çatışmazlığının zəiflik və yorğunluq hissləri ilə əlaqəli olduğunu ortaya qoyur. Bu cür çatışmazlıqlar bədənin kifayət qədər enerji istehsal etməsinə mane olur. Yuxusuzluq səhərlər dincəlməməyin ən ümumi səbəblərindən biridir. Yuxu vəqfinə görə, yuxuya getməkdə çətinlik çəkmək və ya oyandıqdan sonra yenidən yuxuya gedə bilməmək sizi səhərlər halsız edə bilər. Yuxunun olmaması bədənin istirahət vaxtını məhdudlaşdırır və yorğunluq hissi ilə oyanmağınıza səbəb olur.

**Turan**

## "Kan çiçekleri" final edəcək



**”Kanal 7”də yayımlanan ”Kan çiçekleri” ilə bağlı qərar açıqlanıb.**

Axşam.az xəbər verir ki, ekran işi 17 yanvarda yayımlanacaq 434-cü bölümlə final edəcək.

*Qeyd edək ki, layihənin baş rollarını Yağmur Yüksel və Barış Baktaş canlandırır.*

## Qara buludlar çəkilir

### Ebru Gündeş və Murat Özdemir barışıbmı?

**İş adamı Murat Osman Özdəmirlə evlənən Ebru Gündeşin evliliyinin üzərindən tez-tez qara buludlar keçir.**

”Şərq” xəbər verir ki, 2021-ci ildə Rza Zərrabla yollarını ayıran məşhur müğənni Ebru Gündeş fevralın 27-də ailə həyatı qurub. Bu evlilikdən Alara adlı qızı olan məşhur müğənni sonra iş adamı Murat Özdemirlə ailə həyatı qurub.

Dubayda evlənən cütlüklərdən Ebru Gündeş ”Xoşbəxtliyimizi paylaşan hər kəsə təşəkkür edirik” deyərək evləndiyini açıqlayıb.



Münasibətlərini diqqətdən kənarda yaşayan məşhur cütlük haqqında indi yeni iddialar ortaya atılıb. Ebru Gündeşin əri Murat Özdemirlə mübahisə etdiyi və ayrıldığı iddia edilib.

Başqa bir iddiaya görə, Murat Özdemir Dubaydan əşyalarını yığaraq həyat yoldaşından sonra İstanbula qayıdıb.

”Sabah”ın xəbərinə görə, məşhur cütlüyün cəbhəsində yenidən bir inkişaf yaşanıb. Ebru Gündeş və Murat Özdemirin evliliklərindəki böhranı aradan qaldıraraq barışdıqları söylənilir.

İlk evliliyini 16 yaşında Həmdi Vardarla, 2002-ci ildə isə vəkil Ömer Durakla olan Gündeş 2010-cu ildə iranlı azərbaycanlı iş adamı Rıza Sərrafla ailə həyatı qurub.

Bu evlilikdən 2011-ci il oktyabrın 15-də qızı Alara dünyaya gəlib. 2021-ci ilin may ayında Gündeş Sərrafın onu aldatdığını iddia edərək Bodrum Ailə Məhkəməsində iddia qaldırıb və 11 illik evliliyinə son qoyaraq, qarşılıqlı razılıq əsasında boşandı.

**Turan**